

2016-2020-Ci İLLƏR ÜÇÜN BMT-AZƏRBAYCAN

TƏRƏFDAŞLIQ ÇƏRÇİVƏSİ SƏNƏDİ

# Sənədin 2018-ci ildə icrasına dair Hesabat

**Üz səhifədəki şəkil haqqında:** Şəkildə İsmayıllı rayonunda xalçaçı kimi fəaliyyət göstərən Yeganə Eldarova təsvir olunur. O, "Ailə Biznesinə Asan Dəstək" publik hüquqi şəxs (ABAD) və BMT-nin İnkişaf Proqramı (BMTİP) tərəfindən dəstək göstərilən kəndlilər arasında yer almaqla, öz biznesini yaratmaq imkanı əldə etdi. Hazırda onun müəssisəsində 100 nəfər yerli şəxs çalışır. BMTİP və ABAD-ın bu birgə təşəbbüsünün məqsədi Azərbaycanın dağlıq icmalarında kənd təsərrüfatı ilə məşğul olan əhali üçün alternativ gəlir mənbələri yaratmaqdır.

BMT-nin Azərbaycandakı Ofisi tərəfindən nəşr olunub. © BMT-nin Azərbaycandakı Ofisi 2019

Bütün hüquqlar qorunur. Bu nəşrin məzmunu BMT-nin Azərbaycan Ofisinin mənbə kimi göstərilməsi şərtilə, təhsil və qeyri-kommersiya məqsədləri üçün sərbəst surətdə istifadə oluna və çoxaldıla bilər.

**Tel:** (012) 498 98 88. Email: office.az@one.un.org. Bakı şəhəri, BMT-nin 50 illiyi küçəsi 3

**Redaktə və tərtibat:** Small World Stories və badhatharry.com.au

***Foto müəllifləri:*** *Üz səhifədəki foto: BMTİP Azərbaycan/ Andrea Egan; Üz səhifənin daxili tərəfi: BMT-nin Bakı Ofisi; səhifə 4: BMTİP Azərbaycan/Ülvi Bədəlov; səhifə 9: Kənd Təsərrüfatı Nazirliyi/ Elxan Quliyev; səhifə 17: BMT-nin Bakı Ofisi/Zaur Zeynal; səhifə 19: BMT-nin Bakı Ofisi; səhifə 22: BMT-nin Bakı Ofisi; səhifə 25: yuxarı sağ və aşağı sol tərəfdə BMTİP/Elmar Mustafayev; səhifə 25: aşağı orta və sağ tərəfdə Avropa İttifaqı; səhifə 27 (yuxarı sol tərəfdə): Kənd Təsərrüfatı Nazirliyi/ Elxan Quliyev; səhifə 27 (sağ tərəfdə): FAO/ Vüqar Başirov; səhifə 28: yuxarı sol tərəfdə BMTİP Azərbaycan; səhifə 28: aşağı sağ tərəfdə Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi; səhifə 29: yuxarı sağ tərəfdə ANAMA; səhifə 29: aşağı sol tərəfdə BMqT/ Anar İskəndərov; səhifə 32: UNİCEF Azərbaycan/Bell; səhifə 33: BMT İHAK Azərbaycan; səhifə 34: BMT İHAK Azərbaycan; səhifə 36: Elchin Muradov; səhifə 38: shutterstock; səhifə 41: BMT-nin Gənclər üzrə Məşvərət Şurası; səhifə 42: Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi; səhifə 43: UNİCEF Azərbaycan/ Zeynalov; səhifə 45: UNFPA Azərbaycan; səhifə 46: yuxarı sağ tərəfdə UNİCEF Azərbaycan/Pirozzi; səhifə 46; aşağı sağ tərəfdə BMT-nin Bakı Ofisi; səhifə 47: UNFPA Azərbaycan; səhifə 49 : BMT-nin Bakı Ofisi; səhifə 51: BMT İHAK Azərbaycan; səhifə 52: BMT İHAK Azərbaycan; səhifə 53: BMT-nin Bakı Ofisi; səhifə 55 : FAO/ Tofiq Babayev; səhifə 59: Qızılağac Milli Parkı; səhifə 61: BMTİP Azərbaycan/ Andrea Egan.*




# İçindəkilər

**ÖN SÖZ** ..... 5

**XÜLASƏ** ..... 6

**BÖLMƏ 1: KONTEKST** ..... 8

AZƏRBAYCANDAKI İNKİŞAFIN TƏSVİRİ ..... 8
BMT-AZƏRBAYCAN TƏRƏFDAŞLIQ ÇƏRÇİVƏ SƏNƏDİ HAQQINDA ..... 11
2018-Cİ İL ÜZRƏ ƏN VACİB MƏQAMLAR ..... 12

**BÖLMƏ 2: ƏSAS NƏTİCƏLƏR** ..... 16
2030-CU İL GÜNDƏLİYİNƏ DOĞRU ..... 15
BİRİNCİ STRATEJİ SAHƏ: ŞAXƏLƏNDİRİLMƏNİN ARTIRILMASINI VƏ LAYİQLİ İŞ YERLƏRİNİ DƏSTƏKLƏYƏN DAYANIQLI VƏ İNKLÜZİV İQTİSADİ İNKİŞAFIN TƏŞVİQİ ..... 19
İKİNCİ STRATEJİ SAHƏ: İNSTİTUSİONAL POTENSİALIN VƏ EFFEKTİV İCTİMAİ-SOSİAL XİDMƏTLƏRİN GÜCLƏNDİRİLMƏSİ ..... 25
ÜÇÜNCÜ STRATEJİ SAHƏ: ƏTRAF MÜHİTİN İDARƏ EDİLMƏSİ VƏ ONUN TƏHLÜKƏ VƏ FƏLAKƏTLƏRƏ MÜQAVİMƏTİNİN TƏKMİLLƏŞDİRİLMƏSİ ..... 30
GƏNCLƏRİN SƏLAHİYYƏTLƏNDİRİLMƏSİ ..... 34
QADINLARIN SƏLAHİYYƏTLƏNDİRİLMƏSİ ..... 37
İNSAN HÜQUQLARI ..... 40

**BÖLMƏ 3: İRƏLİYƏ BAXIŞ** ..... 54

YENİ TƏRƏFDAŞLIQLAR ..... 44
QARŞIDAN GƏLƏN İL ..... 45

**BÖLMƏ 4:TƏRƏFDAŞLARIMIZ VƏ MALİYYƏ İCMALI** ..... 60



# Ön söz



2016-2020-ci illər üçün BMT-Azərbaycan Tərəfdaşlıq Çərçivəsi (UNAPF) Sənədinin icrasının üçüncü ilini əhatə edən illik hesabatı sizə təqdim etməkdən məmnuniyyət hissi duyuram! Hesabatda Hökumət və digər milli maraqlı tərəflər, o cümlədən vətəndaş cəmiyyəti təşkilatları, elm ictimaiyyəti və özəl sektorla birgə göstərdiyimiz səylərin nəticələri öz əksini tapır.

2018-ci ildə tərəfdaşlarımızla yaxından əməkdaşlıq çərçivəsində qeyri-neft sektorunda məşğulluq imkanlarının artırılması və bacarıqların inkişaf etdirilməsi, qadınların, gənclərin və həssas icmaların hüquq və imkanlarının artırılması, milli qurumların daha yaxşı siyasət sənədlərinin hazırlanması və vətəndaşlara təqdim olunan xidmətlərin və dəstək mexanizmlərinin genişləndirilməsi ilə bağlı potensiallarının artırılmasına töhfə verdik.

Bundan əlavə, insan hüquqları ilə bağlı beynəlxalq standartlara əməl olunmasına dəstək, gender bərabərliyinin artırılması, ictimai səhiyyə sistemlərinin gücləndirilməsi, müasir və dayanıqlı kənd təsərrüfatının təşviqi, habelə ətraf mühitin mühafizəsi və təbii fəlakət risklərinin azaldılması 2018-ci ildəki fəaliyyətimizin diqqət mərkəzində olub.

2018-ci il ərzində biz Dayanıqlı İnkişaf üzrə Milli Əlaqələndirmə Şurasının Dayanıqlı İnkişaf Məqsədlərinin (DİM-lər) prioritetləşdirilməsi və milliləşdirilməsi istiqamətindəki səylərinə dəstəyimizi davam etdirdik. Nəticədə, Hökumət ilin sonunadək icrası sürətləndiriləcək prioritet məqsədlərin və hədəflərin siyahısını dərc etdi.

Siyasət sənədlərinin hazırlanması və icrasına xüsusi diqqət yetirməklə, kənd təsərrüfatı, səhiyyə və sosial xidmət sahələrində strategiyaların formalaşdırılmasına kömək etdik. Azərbaycan Respublikasının Prezidenti BMT-nin dəstəyi ilə hazırlanmış 2019-2030-cu illər üzrə Milli Məşğulluq Strategiyasını 2018-ci ilin oktyabrında təsdiq etdi. "Ətraf mühitə təsirin qiymətləndirilməsi haqqında" Azərbaycan Respublikasının Qanunu isə 2018-ci ilin iyul ayında qüvvəyə mindi.

BMT-nin dəstəyi ilə, Azərbaycanda sahilboyu su-bataqlıq ərazilərinin təbii irsini qorumağa kömək edəcək, Xəzər dənizi sahilində 100 min hektar ərazini əhatə edən ilk Dənizkənarı Milli Park yaradıldı.

İnsan Hüquqları haqqında Ümumi Bəyannamənin 70-ci ildönümü münasibətilə, Bakıda üç günlük sərgi təşkil etdik və Universal Dövri İcmalın nəticələrini milli tərəfdaşlarımızla geniş şəkildə paylaşdıq.

BMT-nin Azərbaycandakı Ölkə üzrə İdarə Heyəti ekspert məsləhəti və digər resursların təmin edilməsi yolu ilə bu sahələrə və ölkənin bir çox digər inkişaf prioritetlərinə verdiyi töhfədən qürur hissi duyur. BMT-nin Ölkə üzrə İdarə Heyəti Azərbaycanın 2030-cu ilədək DİM-lərə nail olmaqla bağlı hədəfinə dəstək göstərməyə davam edəcək.

Ümid edirəm ki, ictimaiyyətə təqdim olunan bu hesabat oxucuların birgə fəaliyyətimiz, onun nəticələri və dayanıqlı təsirləri barədə daha dərin təsəvvür qazanmasına kömək edəcək.

Mən Azərbaycan Hökumətinə və bütün digər inkişaf tərəfdaşlarımıza Azərbaycan xalqının mənafeyi naminə bu müştərək nəticələrin əldə olunmasında bizimlə birgə göstərdikləri səylərə görə təşəkkür edirəm! Mən, həmçinin, Azərbaycanın bütün əhalisinin həyatında fərq yaratmaq məqsədilə göstərdikləri əzmə və gərgin əməyə görə, BMT-nin bütün heyətinə və mütəxəssislərinə minnətdarlığımı bildirirəm!

**Qulam İshaqzai**
***BMT-nin Rezident Əlaqələndiricisi***

# Xülasə

Azərbaycan 1991-ci ildə müstəqilliyini əldə etdikdən sonra əhəmiyyətli iqtisadi və sosial dəyişikliklərə şahidlik edib. İqtisadiyyatın sürətli inkişafı, eləcə də ömür uzunluğu və məktəb təhsilinin müddəti kimi insan inkişafı göstəricilərinin artması ilə yanaşı, qeyri-bərabərliklər də çoxalmaqdadır. Hazırda qarşıda duran məsələ hamının faydalanacağı davamlı inkişafın təmin edilməsidir.

2016-cı ildə Azərbaycan hökuməti və Birləşmiş Millətlər Təşkilatı 2016-2020-ci illər üçün BMT-Azərbaycan Tərəfdaşlıq Çərçivə sənədini hazırlayıb və razılaşdırıblar. Əvvəlki illərin əməkdaşlığına əsaslanan Tərəfdaşlıq Çərçivə sənədinin məqsədi ölkədəki hər kəsin bərabər imkanlara, keyfiyyətli təhsil və səhiyyə xidmətlərindən istifadə imkanlarına malik olmasına, layiqli iş tapmasına və təmiz, təhlükəsiz mühitdə yaşamasına kömək etməkdir.

## Nəticələr

2018-ci ildə Tərəfdaşlıq Çərçivə sənədinin yeddi əsas fəaliyyət sahəsi üzrə ciddi nəticələrə nail olunub.

### 2030-cu il Gündəliyinə doğru

Azərbaycanda Dayanıqlı İnkişaf Məqsədlərini (DİM-lər) sürətləndirə biləcək siyasət və proqram tədbirlərinin müəyyənləşdirilməsi və bu Məqsədlərin monitorinqinə dair məlumatların təkmilləşdirilməsi məqsədilə, Dayanıqlı İnkişaf üzrə Milli Əlaqələndirmə Şurası və digər qurumlarla yüksək səviyyəli iş görülüb. Müxtəlif qruplara, o cümlədən özəl sektor, KİV, millət vəkilləri və ictimaiyyət nümayəndələrinə DİM-lər haqqında və bu məqsədlərə nail olmaq üçün onların görə biləcəkləri işlərə dair bütün ölkədə bir çox tədbir, seminar və digər fəaliyyətlər həyata keçirilib.

### Birinci strateji sahə: Şaxələndirilmənin artırılmasını və layiqli iş yerlərini dəstəkləyən dayanıqlı və inklüziv iqtisadi inkişafın təşviqi

2018-ci ildə iş axtaran şəxslərin və işçilərin bu Tərəfdaşlıq vasitəsilə yekunlaşdırılmış yeni milli strategiya və çərçivələrdən faydalanmaları üçün işlər görülüb, həmçinin minlərlə gənc, qadın və kənd yerlərində yaşayan şəxs yeni bacarıqlar və iş imkanları əldə edib. Hökumətin inkişafa dair daha şaxələndirilmiş iqtisadiyyatı ehtiva edən baxışını nəzərə alaraq, 2018-ci ildə Tərəfdaşlıq Çərçivə sənədi kənd təsərrüfatı və informasiya-kommunikasiya texnologiyaları (İKT-lər) kimi yüksək potensiala malik sahələrdə ciddi irəliləyiş əldə edilməsinə kömək edib. Münaqişədən və təqibdən zərər çəkmiş insanlar üçün yeni imkanlar yaradılıb.

### İkinci strateji sahə: İnstitusional potensialın və effektiv dövlət və sosial xidmətlərin gücləndirilməsi

Ardıcıl iki ildir ki vətəndaşlar və KİV hökumətin Yol xəritələri üzrə fəaliyyətinin şahidi ola bilib. İctimai xidmətlərin göstərilməsini təkmilləşdirmək məqsədilə "Mobil imza"-nın sınaqdan çıxarılması e-idarəetməni irəliyə doğru aparıb. Hazırda yeni onlayn funksiyalar əcnəbilər və yerli sakinlər üçün ölkə sərhədlərini keçən zaman informasiya və xidmətləri daha asan əldə etmə imkanını təmin edir. 2018-ci ildə tərəfdaşlıq sənədi həmçinin hökumətə, sosial xidmətlərin cəmiyyətin bütün üzvləri, o cümlədən uşaqlar, qadınlar və əlilliyi olan şəxslər üçün əlçatan olmasını təmin etmə səylərinə də dəstəyini davam etdirib. Buraya məcburi köçkün, qaçqın və ya digər aztəminatlı insanları əhatə etmənin daha effektiv və innovativ yollarının (məsələn, səyyar hüquqi yardım klinikaları vasitəsilə) və ya uşaqların müdafiəsi üçün daha yaxşı əlaqələndirilən sistemlərin araşdırılıb tapılması daxildir.

### Üçüncü strateji sahə: Ətraf mühitin idarə edilməsi və onun təhlükə və fəlakətlərə müqavimətin təkmilləşdirilməsi

Tərəfdaşlıq Çərçivəsi Azərbaycana 2030-cu ilədək özünün istixana qazları emissiyasını 35 faizədək azaltma[1] səylərində dəstək göstərib. Bununla bağlıhazırkı emissiyaların qiymətləndirilməsində hökumətə dəstək göstərilməsi, iqlim dəyişmələri ilə mübarizə məqsədilə qərar qəbul edən şəxslərin ən effektiv siyasət və tədbirlər barədə vacib məlumatlarla təmin edilməsini qeyd etmək olar. Burada, həmçinin özəl sektorun hansı şəkildə tədbirlər görə biləcəyini nümayiş etdirmək məqsədilə Azərbaycan Respublikası Dövlət Neft Şirkəti (ARDNŞ) ilə iş öz əksini tapıb. Eyni zamanda, ətraf mühitin mühafizəsi və meşələrin, dəniz və milli park ərazilərinin idarə edilməsi təkmilləşdirilib,

[1] *Baza ili (1990) ilə müqayisədə*

Birləşmiş Millətlər Təşkilatının dəstəyi ilə hazırlanmış yeni qanunvericilik qüvvəyə minib, meşələrin dayanıqlı idarəçiliyinin təkmilləşdirilməsi və Azərbaycanın özünün ilk dəniz parkını açması məqsədilə tədbirlər həyata keçirilib.

### Gənclərin səlahiyyətləndirilməsi

Tərəfdaşlıq Çərçivəsi gənclərin müsbət sosial dəyişiklik təmsilçiləri kimi fəaliyyət göstərmələri üçün onların bacarıq və səlahiyyətlərini artırmağa davam edib. 2018-ci ildə bu tədbirlər sırasında onlara öz həmyaşıdları ilə birlikdə sosial problemlər və dayanıqlı inkişaf məqsədləri üzrə fəaliyyətlərinin dəstəklənməsi, əlilliyi olan gənclərin müsbət imicinin təbliği və gənclərə öz bacarıqlarını artırmaq üçün imkanların təmin edilməsini vurğulamaq olar.

### Qadınların səlahiyyətləndirilməsi

Gender bərabərliyi və qadınların səlahiyyətləndirilməsi sahəsində fəaliyyətlər 2018-ci il Tərəfdaşlıq sənədi çərçivəsində bir sıra vacib layihələrin təşkili və icrası ilə xeyli genişlənib. Qadın hüquqları naminə kampaniyalar, siyasəti müəyyənləşdirən şəxslər və başqaları ilə qadınların səlahiyyətləndirilməsi istiqamətində müsbət fəaliyyət həyata keçirmək üçün yeni araşdırmalar və tədbirlər planlarına dəstəyin göstərilməsini qeyd edə bilərik.

### İnsan hüquqları

Tərəfdaşlıq Çərçivəsi hökumət, vətəndaş cəmiyyəti və hüquq icmalarından olan maraqlı tərəflərin Azərbaycanda insan hüquqlarını daha yaxşı şəkildə həyata keçirmə imkanını artırıb. Təşviqat tədbirləri uşaq hüquqlarını dəstəkləyib, Ümumdünya İnsan Hüquqları Bəyannaməsinin 70 illiyi isə insan hüquqlarının tarixi və fundamental əhəmiyyətini vurğulamaq və qeyd etmək imkanını verib.

# Bölmə 1: Kontekst

***Azərbaycandakı inkişafın təsviri***

***BMT-Azərbaycan Tərəfdaşlıq Çərçivə sənədi haqqında***

***2018-ci il üzrə ən vacib məqamlar***





# Azərbaycandakı inkişafın təsviri

Azərbaycan 1991-ci ildə müstəqilliyini qazandığı vaxtdan etibarən ciddi iqtisadi və sosial dəyişikliklər yaşayıb. Planlaşdırılmış iqtisadiyyatdan bazar iqtisadiyyatına keçməklə, ölkə yüksək-orta gəlirli ölkəyə çevrilməklə yanaşı, insan inkişafı sahəsində böyük nailiyyətlər əldə edib. Hazırda əsas məsələ bütün vətəndaşların uzunmüddətli mənafeyi naminə bu nailiyyətlərin davam etdirilməsidir.

## İqtisadiyyatın təsviri

Azərbaycan iqtisadiyyatı ötən 20 il ərzində enerji-neft sahəsində güclü yüksəliş yaşayıb, dünyanın ən sürətlə inkişaf edən iqtisadiyyatlarından biri olaraq qalıb və bir neçə ildə regionda getdikcə yüksələn iddialı mövqe əldə edib[2].Dünya Bankının "Doing Business 2019" hesabatına əsasən, mövqeyi 32 pillə yüksələn Azərbaycan 25-ci yerdə qərarlaşıb[3]. Dünya İqtisadi Forumunun 2018-ci il üçün "Qlobal Rəqabətlilik Hesabatı"nda Azərbaycan 140 ölkə arasında 69-cu yerdə qərarlaşıb. İqtisadi inkişafa neft və qaz ehtiyatlarının istifadəsi, yüksək səviyyədə dövlət xərclərinin ayrılması və bazar iqtisadiyyatına dəstək islahatlara təkan verib.

Bu güclü inkişafa baxmayaraq, milli iqtisadiyyat faydalı qazıntıların çıxarılması və hasilatından asılı olaraq qalır. Son dövrlərdə qlobal neft qiymətlərinin ciddi şəkildə aşağı düşməsi və geniş iqtisadi durğunluq ölkəyə təsir göstərib[4]. 2015-2017-ci illərdə iqtisadiyyatın yaşadığı geriləmə və durğunluqdan sonra Azərbaycan 2018-ci ildə 1,4 faiz artım yaşayıb. Bu da əsasən, qeyri-neft sektorunun hesabına baş verib[5].

Hökumət hasilat sənayesindən güclü asılılığın yaratdığı çətinliyi başa düşərək, əsas diqqətini sahibkarlığa dəstəyə və qeyri-neft iqtisadiyyatının dayanıqlılığının genişləndirilməsinə (xüsusilə, kənd təsərrüfatı, turizm və İKT sahələrində), o cümlədən ixracyönümlü inkişafa yönəldərək maliyyə sektorunda əsaslı islahatlara başlayıb[6].

> *Hazırda əsas məsələ bütün vətəndaşların uzunmüddətli mənafeyi naminə bu nailiyyətlərin davam etdirilməsidir.*

## İnsan inkişafının təsviri

Azərbaycanın 2017-ci il üzrə insan inkişafı indeksi göstəricisi 0,757 olub. Bu göstəriciyə görə Azərbaycan 189 ölkə və ərazi arasında 80-ci olaraq insan inkişafının güclü olduğu ölkələr kateqoriyasında yer alıb. Ötən onilliklər ərzində doğulanda gözlənilən ömür uzunluğu 7,3 ilədək, məktəbdə təhsil almanın orta müddəti 0,5 ilədək, məktəbdə təhsil almanın gözlənilən müddəti isə iki ilədək artıb[7]. Azərbaycan, həmçinin beş yaşından kiçik uşaqlar arasında ölüm səviyyəsini hər 1000 doğuşa 25 ölümdən artıq olmayan səviyyəyə gətirməklə bağlı Dayanıqlı İnkişaf Məqsədinə nail olub.

Xidmətlərin "bir pəncərə" vasitəsilə göstərilməsi üçün ölkə müvəffəqiyyətli Azərbaycan Xidmət və Qiymətləndirmə Şəbəkəsi mərkəzləri (ASAN) modeli yaradıb və onu formalaşdırmağa davam edir. Bu model bürokratiyanı, korrupsiya hallarını və insanların gözləmə zamanını əhəmiyyətli dərəcədə azaldıb.

Bu müsbət meyllərə baxmayaraq, Azərbaycan qeyri-bərabərlik problemi yaşayır və ölkənin insan inkişafı statistikasına yaxından nəzər saldıqda bunu aydın şəkildə görmək olur.

Azərbaycanın əmək bazarları təklif-tələb uyğunsuzluqları, həssas və qeyri-formal işlərin yüksək səviyyədə olması və regional əmək bazarlarında uyğunsuzluqlar kimi ciddi struktur problemləri ilə xarakterizə olunur. Azərbaycan əhalisinin çoxunu gənclər təşkil etdiyi üçün ölkənin əksər hissələrində gənclər işsiz əhali arasında çoxluğu təşkil edir .

Yaxın dövrlərədək sosial rifah proqramlarının diqqət mərkəzində kompleks sosial xidmətlərin göstərilməsi deyil, əsasən nağd formada yardım dayanıb. Lakin hökumətin 31 Dayanıqlı və Operativ Sosial Müdafiə Mərkəzi yaratmağa dair yeni təşəbbüsü növbəti illərdə əhalinin ən həssas təbəqələrinə göstərilən sosial xidmətləri əhəmiyyətli dərəcədə yaxşılaşdıracaq. Yaxın dövrlərdə təhsil (13 faizədək) və səhiyyə (44,5 faizədək) sahələrinə ayrılan vəsaitlərdə nəzərəçarpan artım insan kapitalının təkmilləşdirilməsi baxımından əhəmiyyətlidir. Bununla belə, büdcə ayırmaları və xərclərini prioritetləşdirilmiş Dayanıqlı İnkişaf Məqsədləri və hədəflərinə uyğunlaşdırmaq üçün daha çox səy tələb olunur.

Ümumilikdə, bütün yaş qruplarından olan əlilliyi olan şəxslər təhsil, iş və istirahət imkanları baxımından sosial təcridolunma ilə üzləşirlər. Azərbaycan 2018-ci ildə əlilliyi olan şəxslərin hüquqlarına dair yeni qanun qəbul edib. Qanun əlillik vəziyyətinə görə ayrı-seçkiliyin aradan qaldırılması üçün hüquqi əsas təmin edir, əlilliyi olan insanların sosial inteqrasiyasını və öz həyatları ilə bağlı qərar qəbuletmə prosesinə cəlb edilməsini dəstəkləyir. Qanun, həmçinin əlilliyi olan insanlar üçün bərabər imkanlar əsasında hüquq və azadlıqları vurğulayır. Eyni zamanda, 2018-ci ildə inklüziv təhsilə dair yeni dövlət proqramı təqdim olunub. Proqramın diqqət mərkəzində əlilliyi olan uşaqların normal məktəblərdə keyfiyyətli təhsil almasının vacibliyi dayanır.

Ölkənin demoqrafik vəziyyətinin sonuncu icmalından götürülmüş faktlar həm kişilər, həm də qadınlar üçün doğulanda gözlənilən ömrün daha uzun olmasını, həmçinin qadınlar arasında savadlılıq səviyyəsinin daha yüksək olmasını nəzərdə tutan gender bərabərliyi üzrə irəliləyişin olduğu bir neçə sahəni işıqlandırır. Tədqiqat həmçinin qadınların hazırda daha gec yaşda evlənmə ehtimalının daha çox olduğunu, həm kənd, həm də şəhər ərazilərində məskunlaşma üçün təqribən bərabər imkanlara malik olduğunu, ev təsərrüfatı xaricində gəlir gətirən fəaliyyətlərlə daha çox məşğul olduğunu göstərir. Bununla belə, fərdi, institusional və struktur səviyyələrində bir sıra əngəllər gender bərabərliyi sahəsində islahatlara hələ də ciddi şəkildə mane olur[9].

> *Azərbaycan əhalisinin çoxunu gənclər təşkil etdiyi üçün ölkənin əksər hissələrində gənclər işsiz əhali arasında çoxluğu təşkil edir*

Əhəmiyyətli nailiyyətlərə baxmayaraq, gender bərabərliyinə doğru irəliləyişdə Azərbaycan bir sıra çətinliklərlə üzləşir. Onların çoxu (sektorlar və peşə fəaliyyəti üzrə gender təsnifləndirilməsi, ödənilməyən məişət fəaliyyətinin qeyri-bərabər bölünməsi və iş yerlərində gender əsaslı ayrı-seçkilik kimi) gender bərabərliyi ilə bağlı qlobal tredndlərdə göstərilən çətinliklərlə eynilik təşkil edir[10].

### Ətraf mühitlə bağlı vəziyyət

Azərbaycan atmosferə ən çox istixana qazları atan ölkələr sırasında deyil. Buna baxmayaraq, Azərbaycanın karbohidrogen hasilatından asılılığı nəzərə alınarsa, iqtisadi inkişafın karbon təsirini azaltmaq üçün yeni yolların müəyyənləşdirilməsi (xüsusilə, emissiyaların 75.9 faizini əmələ gətirən energetika sektorunda) olduqca vacibdir.

İçməli su ehtiyatlarının azlığı və Xəzər dənizi sahilində yerləşmə nəzərə alınarsa[11], Azərbaycan, iqlim dəyişmələrinə qarşı həssas mövqedədir. Dəyişən iqlimə uyğunlaşmaq üçün təcili şəkildə onunla mübarizə mexanizmlərinin və potensialının genişləndirilməsinə ehtiyac var. Ölkə BMT-nin ətraf mühitin mühafizəsi ilə bağlı əsas konvensiyalarının hamısına, o cümlədən ən vacib üç konvensiyaya – İqlim dəyişmələri haqqında Konvensiya, Biomüxtəliflik haqqında Konvensiya və Torpaqların deqradasiyası haqqında Konvensiyaya qoşulub. Azərbaycan BMT-nin İqlim dəyişmələri üzrə Çərçivə Konvensiyasını (UNFCCC) 1995-ci ildə ratifikasiya edib, 2015-ci ilin dekabr ayında isə Paris Konvensiyasına qoşulub.

*İçməli su ehtiyatlarının azlığı və Xəzər dənizi sahilində yerləşmə nəzərə alınarsa, Azərbaycan, iqlim dəyişmələrinə qarşı həssas mövqedədir.*

### Sülhlə bağlı vəziyyətin təsviri

Ölkə müstəqilliyinin erkən mərhələsində özünün Dağlıq Qarabağ bölgəsində və ətrafında silahlı münaqişə nəticəsində geniş miqyasda məcburi köçürülmə böhranı ilə üzləşib. Bunun nəticəsində, 1 milyondan artıq insan öz evlərindən didərgin düşüb, qaçqın və ya məcburi köçkünə (MK-lər) çevrilib. 20 ildən artıq bir müddət keçdikdən sonra dövlət statistikasına görə, Azərbaycanın Dağlıq Qarabağ regionu və yeddi ətraf rayondan olan təqribən 620 000 nəfər şəxs məcburi köçkün olaraq qalır. Kövrək atəşkəsə baxmayaraq, məcburi köçkünlük ölkə üçün hələ də əsas problemlərdən biridir. Bu sahədə heç bir siyasi həll variantı əldə olunmayıb və hələ də dayanıqlı həll yoluna nail olunması gözlənilir.

[11]*Azərbaycanın UNFCCC Konvensiyası üçün İkinci Milli Məlumatı*



# BMT-Azərbaycan Tərəfdaşlıq Çərçivə sənədi haqqında

2016-cı ildə Azərbaycan hökuməti və BMT yeni Tərəfdaşlıq çərçivəsi hazırlayıb və razılaşdırıblar. 2016-2020-ci illər üçün BMT-Azərbaycan Tərəfdaşlıq Çərçivə sənədinin məqsədi ölkədəki hər kəsin bərabər imkanlara, keyfiyyətli təhsil və səhiyyə xidmətlərindən istifadə imkanlarına malik olmasına, layiqli iş tapmasına və təmiz, təhlükəsiz mühitdə yaşamasına kömək etməkdir.

Tərəfdaşlıq bu məqsədə, BMT-nin təmənnasız olaraq bacarıqların, resursların və Azərbaycanın milli inkişaf gündəliyi üzrə səylərinin bir araya gətirilməsi ilə nail olmağı hədəfləyir. Bu gündəlik "Azərbaycan 2020: Gələcəyə baxış" İnkişaf Konsepsiyasında və 2030-cu il Dayanıqlı İnkişaf Gündəliyində əks olunub. Tərəfdaşlıq həmçinin özəl sektoru və vətəndaş cəmiyyətini əhatə edir.

## *Yanaşmamız*

Tərəfdaşlıq Azərbaycana özünün üç strateji sahədəki inkişaf məqsədlərinə nail olmasını dəstəkləyir. Bu sahələrdə BMT-nin birgə, təmənnasız səyləri aşağıdakı nəticələri əldə edə bilər:

- *İqtisadiyyatı şaxələndirmək və layiqli iş imkanları yaratmaq (xüsusilə, gənclər və kənd yerlərində və ya münaqişədən zərər çəkmiş ərazilərdə yaşayan şəxslər üçün) məqsədilə dayanıqlı və inklüziv inkişaf.*
- *Şəffaf və heç kəsin diqqətdən kənarda qalmamasını təmin edəcək daha təkmil dövlət və sosial xidmətlər.*
- *Təhlükəsiz mühiti dəstəkləyən və Azərbaycanın unikal təbii irsini mühafizə edən, eyni zamanda insanların və onların icmalarının təhlükə və ya fəlakətlərə müqavimət göstərməyə qadir olmasını təmin edən daha yaxşı ətraf mühit idarəçiliyi.*

Hər kəsin əsas insan hüquqlarının, həmçinin qadınlarla kişilər arasında bərabərliyin dəstəklənməsi bu Tərəfdaşlığın bütün fəaliyyəti ilə üst-üstə düşür. Çünki onlar Azərbaycanın inkişaf məqsədlərinə nail olması və özünün beynəlxalq öhdəliklərini yerinə yetirməsi üçün çox vacibdir. Bu Tərəfdaşlığın ən vacib elementlərindən biri, həmçinin hökumətə Dayanıqlı İnkişaf Məqsədlərinə (DİM-lər) nail olmaqda dəstək göstərilməsidir.

### Prosedurlarımız

Müvəffəqiyyəti təmin etmək üçün hökuməti təmsil edən yüksək vəzifəli şəxslərdən və BMT agentliklərinin rəhbərlərindən ibarət İstiqamətləndirici Komitə BMT-Azərbaycan Tərəfdaşlıq Çərçivə sənədinə strateji rəhbərliyi təmin edir. Eyni zamanda, BMT-nin və hökumətin birgə səylərini əlaqələndirmək və asanlaşdırmaq məqsədilə üç nəticə qrupu (yuxarıda qeyd edilmiş strateji sahələrin hər biri üzrə bir qrup) yaradılıb. Bundan əlavə, Tərəfdaşlığın həyata keçirilməsinə Gender Tematik Qrupu, İnsan Hüquqları Tematik Qrupu, Kommunikasiya Qrupu və Əməliyyatların İdarə Edilməsi Qrupu yardım edir.

Nəhayət, Tərəfdaşlığa cəlb edilmiş müxtəlif təşkilatların nümayəndələrinin daxil olduğu Monitorinq və Qiymətləndirmə üzrə İşçi Qrup sənədin icrasını izləyir. Tərəfdaşlığın həyata keçirilməsinin müntəzəm şəkildə təkmilləşdirilməsi məqsədilə, onlar nailiyyətləri və təcrübələribir araya toplayırlar.

# 2018-ci il üzrə ən vacib məqamlar

2018-ci ildə BMT agentlikləri ilə birgə təqribən 70 dövlət və qeyri-dövlət təşkilatı işləyib, fəaliyyətlərə birlikdə 15,952,711 ABŞ dolları vəsait ayrılıb və ciddi irəliləyiş əldə edilib. 2018-ci ildə Tərəfdaşlıq çərçivəsində əldə olunan nailiyyətlər bunlardır:

**Birinci strateji sahə: Şaxələndirilmənin artırılması və layiqli iş yerlərini dəstəkləyən dayanıqlı və inklüziv iqtisadi inkişafın təşviqi**

2018-ci ilin oktyabr ayında Prezident 2019-2030-cu illər üçün Milli Məşğulluq Strategiyasını təsdiq edib. Strategiya Azərbaycanın əmək ehtiyatları, məşğulluğu və sosial müdafiəsinin daha təkmil idarəçiliyinə imkan yaradır.

Kənd yerlərində yaşayan qadınların öz biznes ideyalarını həyata keçirmələrinə kömək edən çox uğurlu Qadın Resurs Mərkəzləri üç yeni rayonda da yaradılmaqla 2018-ci ildə 1000-dən artıq qadına dəstək göstərib. Beləliklə, Mərkəzlərin ölkə üzrə dəstəklədiyi qadınların sayı 6000-ə çatıb.

Üzvi (orqanik) kənd təsərrüfatı üzrə təqdim olunan sertifikatlaşdırma sistemi bütün ölkədə fermerlər üçün gələcəkdə yeni imkanlar açır.

**İkinci strateji sahə: İnstitusional potensialın və effektiv ictimai-sosial xidmətlərin gücləndirilməsi**

Dövlət xidmətlərinin təqdim olunması işinin təkmilləşdirilməsinə yönələn "Mobil imza" adlı yeni təşəbbüs sayəsində elektron idarəçilik sahəsində irəliyə addımlar atıldı. Əcnəbilər və Azərbaycan vətəndaşları indi dövlət sərhədlərini keçərkən informasiya və xidmətləri daha asanlıqla əldə edə bilirlər.

2018-ci ildə uşaq-mərkəzli və bərabərliyə yönəlmiş yeni kompleks sosial xidmət paketinin sınaqdan çıxarılması ilə uşaqların müdafiəsinə hərtərəfli yanaşma istiqamətində önəmli addım atılıb.

Beş yaşlı uşaqlar arasında birillik məktəbəqədər təhsil alma səviyyəsi 2014-cü ildə mövcud olmuş 14,2 faiz göstəricisindən 2018-ci ildə 75 faizədək yüksəlib.

2017-2020-ci illər üçün Milli Reproduktiv Sağlamlıq Strategiyası hazırlanıb.

**Üçüncü strateji sahə: Ətraf mühitin idarə edilməsi və onun təhlükə və fəlakətlərə müqavimətin təkmilləşdirilməsi**

2018-ci ilin iyul ayında "Ətraf mühitə təsirin qiymətləndirilməsi haqqında" Qanun qüvvəyə minib və hazırda hökumət onun həyata keçirilməsi üçün altı əlavə qanunvericilik aktı hazırlamaqdadır.

Azərbaycanda ilk dəfə Dəniz Milli Parkı yaradılıb. Park Xəzər dənizi sahilləri boyunca, təqribən 100 000 hektar ərazini əhatə edir.

Yeni müşahidə sistemi və məsul şəxslər üçün təlimlər Azərbaycanın çəyirtkə hücumlarının öhdəsindən gəlmə bacarığını artırıb.

Müstəqillik əldə edildikdən sonra ilk dəfə hökumət Dayanıqlı Meşə İdarəçiliyi Meyarları və Göstəricilərinin meşəçilik inventarına və idarəetmənin planlaşdırılmasına tətbiqi üçün istifadə edəcək.

**Gənclərin səlahiyyətləndirilməsi**

Gənclərlə əlaqəni təmin etmək məqsədilə, 17 gənc lider DİM səfiri seçilib və DİM-ləri yaşıdları arasında təbliğ etmək üçün zəruri bacarıq və vasitələrlə təmin ediliblər.

BMT və hökumətin birgə təşəbbüsü mövcud Gənclər Evlərinin fəaliyyətlərini gənclərin iştirakı ilə daha təkmil şəkildə həyata keçirməsini gücləndirib.

Azərbaycanda ilk dəfə müasir robot texnologiyası laboratoriyası öz qapılarını gənclərin üzünə açıb.

Gənclərin inkişafına dəstək üçün peşəkar gənc işçilərin hazırlanması məqsədilə ilk milli magistratura kursu təsis edilib.

Azərbaycanda keçirilən dördüncü Paralimpiya oyunlarında yarışan yüzlərlə uşaq və yeniyetmənin hamısı qalib olub.

**Qadınların səlahiyyətləndirilməsi**

Qızların və qadınların hüquqlarının təşviqi kampaniyalarına və gender zorakılığına qarşı mübarizə tədbirlərinə yüz minlərlə insan cəlb edilib.

Qadınların özəl sektorda müvəffəqiyyət əldə etməsini əngəlləyən maneələrə dair yeni araşdırma fəaliyyətlərə yeni baxışı təmin edir.

Cinsə görə seçimin qarşısını almaq üçün fəaliyyət planı hazırlanıb.

**İnsan hüquqları**

Minlərlə məktəbli insan alverindən necə qorunmalı olduqlarını öyrənib.

Uşaq hüquqları üzrə milli peşəkar təlimçilər ölkədə uşaq hüquqlarına dair təlimlər keçmək üçün artıq zəruri vasitələrlə təmin ediliblər.

Sərgi ilə qeyd olunan Ümumdünya İnsan Hüquqları Bəyannaməsinin 70 illiyi mərasimi hamını insan hüquqlarını dəstəkləməyə çağırıb.

# Bölmə 2: Əsas nəticələr

*2030-cu il Gündəliyinə doğru*

*Birinci strateji sahə: Şaxələndirilmənin artırılmasını və layiqli iş yerlərini dəstəkləyən dayanıqlı və inklüziv iqtisadi inkişafın təşviqi*

*İkinci strateji sahə: İnstitusional potensialın və effektiv ictimai-sosial xidmətlərin gücləndirilməsi*

*Üçüncü strateji sahə: Ətraf mühitin idarə edilməsi və onun təhlükə və fəlakətlərə müqavimətin təkmilləşdirilməsi*

*Gənclərin səlahiyyətləndirilməsi*

*Qadınların səlahiyyətləndirilməsi*

*İnsan hüquqları*



# 2030-cu il Gündəliyinə doğru

Dayanıqlı İnkişaf üzrə 2030-cu il Gündəliyi 2015-ci ildə BMT-nin bütün Üzv Dövlətləri tərəfindən qəbul edilib. Bu sənəd, hazırkı dövr və gələcək üçün insanlara və planetə sülh və çiçəklənmə naminə ümumi planı təmin edir. Gündəliyin mərkəzində 17 Dayanıqlı İnkişaf Məqsədi (DİM-lər) dayanır. Onlar insanların səhiyyə və təhsil xidmətlərindən istifadə imkanlarını artırmaq, qeyri-bərabərliyi azaltmaq və iqtisadi inkişafı təşviq etmək, eyni zamanda, iqlim dəyişikliyi problemləri ilə məşğul olmaq, eləcə də okean və meşələrimizin mühafizəsini yaxşılaşdırmağı hədəfləyirlər. Ötən üç ildə Azərbaycan 2030-cu il Gündəliyinin məqsədlərinə nail olmaq istiqamətində güclü əzm nümayiş etdirib.

**2016**

*OKTYABR 2016: Azərbaycan Respublikasının Prezidenti Dayanıqlı İnkişaf üzrə Milli Əlaqələndirmə Şurasının (DİMƏŞ) yaradılmasına dair fərman imzalayıb. Şuraya Baş nazirin birinci müavini sədrlik edir.*

**2017**

*MAY 2017: Azərbaycan BMT-nin İnkişaf Sisteminin DİM-lərin inteqrasiyası, sürətləndirilməsi və siyasətin dəstəklənməsi (MAPS) platformasına cəlb olunan ilk ölkələrdəndir. 2017-ci ilin may ayına aid MAPS hesabatında DİM-lərin milli səviyyədə sürətləndirilməsi məqsədilə həyata keçirilə biləcək konkret siyasət və proqram hazırlığı tədbirləri göstərilib. Həmin tədbirlərin mərkəzində aşağıdakılar dayanır: inklüziv əmək bazarı, ekoloji baxımdan daha təmiz inkişaf, gender bərabərliyinin daha yüksək səviyyəyə çatdırılması və sosial xidmətlərin genişləndirilməsi.*

**2017**

*İYUL 2017: Yüksək Səviyyəli Siyasi Forum (YSSF) BMT-nin dayanıqlı inkişaf üzrə əsas platforması dır və 2030-cu il Gündəliyinin icrası və qiymətləndirilməsində başlıca rola malikdir. Forumun işini dəstəkləmək məqsədilə üzv dövlətlər irəliləyişlə bağlı könüllü hesabatın verilməsinə təşviq olunurlar. 2017-ci ildə Azərbaycan regionda Foruma öz Könüllü Milli Hesabatını təqdim edən ilk ölkələrdən biri olub və 2019-cu ildə BMT-nin dəstəyi ilə özünün ikinci Hesabatını təqdim edəcək.*





## *Azərbaycanda DİM-lərin sürətləndirilməsi*

2018-ci ildə BMT texniki və siyasət məsələləri üzrə məsləhətləri ilə yanaşı, 2030-cu il Gündəliyinə doğru irəliləyişə təşviq etməkməqsədilə Dayanıqlı İnkişaf üzrə Milli Əlaqələndirmə Şurası və digər qurumlarını dəstəkləyib.

DİM-lərin Azərbaycanda həyata keçirilməsini sürətləndirə biləcək siyasət və proqram hazırlığı tədbirlərini müəyyənləşdirən 2017-ci il MAPS missiyasının nəticə və tövsiyələrinə əsaslanaraq, bu Missiyanın nəticələrini müzakirə etmək və onları tətbiq etmək məqsədilə BMT bir neçə seminar təşkil edib. Seminarlar yüzlərlə dövlət rəsmisi, özəl sektor, vətəndaş cəmiyyəti və gənclər təşkilatlarının nümayəndələrini bir araya gətirib. DİM-lərin daha çox təşviqini nəzərdə tutan qaydalar toplusu olan Bakı Prinsipləri bu tədbirlərin əsas nəticələrindən biri olub.

Azərbaycan MAPS missiyasını (29 may-2 iyun 2017) həyata keçirən ilk ölkələrdən biri olub və 2018-ci ilin oktyabr ayında Dayanıqlı inkişafa dair birinci Bakı Forumunda öz təcrübəsini təqdim edib.



*Yuxarıda: Vətəndaş cəmiyyəti gender bərabərliyini inkişaf etdirir MAPS prosesi Azərbaycanın DİM-lərə doğru ciddi irəliləyişə nail ola biləcəyi əsas sahələrdən biri kimi gender bərabərliyi üzrə fəaliyyəti müəyyənləşdirib. Bu, BMT-nin hökuməti və vətəndaş cəmiyyəti təşkilatlarını məsləhətlərlə və mütəxəssis dəstəyi ilə təmin etdiyi olduqca vacib sahələrdən biridir. 2018-ci ildə BMTİP 38 vətəndaş cəmiyyəti təşkilatı üçün əsas diqqəti qadınlar və kişilər arasında bərabərliyə yönəltməklə 2030-cu il Gündəliyinə müvafiq olaraq layihələrin yazılmasına dair seminarlar keçirib. BMTİP həmin fəaliyyəti bu sahədə çalışan vətəndaş cəmiyyəti təşkilatları üçün layihə müsabiqəsinin elanı ilə davam etdirib. 2019-cu ildə onlar arasından 10-dək ən yaxşı təklif maliyyələşdiriləcək.*

Azərbaycan hökuməti və BMT-nin birgə təşkil etdiyi bu tədbir hökumət, vətəndaş cəmiyyəti və BMT-nin 200-dən artıq nümayəndəsini bir araya gətirib. Tədbirin diqqət mərkəzində dayanan məsələlər 2030-cu il Gündəliyinin həyata keçirilməsi və bu işdə beynəlxalq tərəfdaşlar və parlamentlərin rolu olub. Tədbirdə rəsmi şəkildə təqdim olunmuş Azərbaycanın MAPS hesabatı və Bakı Prinsipləri sonda qəbul edilib. İki ildən bir keçiriləcək bu innovativ tədbir BMT-nin İnkişaf Proqramı (BMTİP) və Azərbaycan Respublikasının Dayanıqlı İnkişaf üzrə Milli Əlaqələndirmə Şurasının texniki və maliyyə dəstəyi sayəsində baş tutub.

## Məqsədlərə doğru irəliləyişin monitorinqi asanlaşmağa başlayır

2030-cu il Gündəliyinin həyata keçirilməsi üçün ən vacib məsələ bu məqsədlər üzrə irəliləyişi ölçə və monitorinq edə biləcək güclü statistik sistemə malik olmaqdır. Məqsədlərin mənimsənilməsi, həmçinin hazırkı məlumat dövriyyəsini idarə etmək və inkişaf üçün məlumatların vacibliyini göstərmək imkanı verir. 2018-ci ildə Məqsədlərin monitorinqinə dair məlumatların daha təkmil və daha asan şəkildə əldə edilməsini təmin etmək məqsədilə, BMT agentlikləri (FAO, UNFPA, BMTİP, UNICEF və ÜST) Dayanıqlı İnkişaf üzrə Milli Əlaqələndirmə Şurası, Dövlət Statistika Komitəsi və digər qurumlarla sıx şəkildə çalışıb.

**2018-ci ildə**

Əhaliyə dair milli məlumat bazasına daxil edilmiş 10 əlavə göstərici üzrə cinslərə görə qruplaşdırılmış məlumatlar əldə olunub.

2018-ci ildə Milli Ailə Büdcəsi Sorğusu vasitəsilə əlilliklə bağlı məlumatların toplanmasının Vaşinqton Modulu sınaqdan keçirilib və 2019-cu ildə Əhalinin Siyahıyaalınmasına daxil ediləcək.

Məqsədlərə dair ümumi icmal və milli statistika təmin edən iki onlayn platforma yaradılıb.

Dövlət Statistika Komitəsinin və digər müvafiq qurumların heyəti üçün DİM göstəriciləri barədə daha təsirli kommunikasiya üçün məlumatların vizuallaşdırılmasına dair təlimlər keçirilib.

2015-ci və 2017-ci illərdə Uşaqlar arasında məhrumiyyət vəziyyətinin öyrənilməsinə dair araşdırmaların dərindən təhlili maliyyə böhranının uşaqlara və onların ailələrinə təsirinə dair əsas məqamları üzə çıxarıb.

Qaçqınların ev təsərrüfatlarının 83 faizi arasında sosial-iqtisadi qiymətləndirmə həyata keçirilib. Qiymətləndirmə onların həyat şəraitinə, ərzaq istehlakına, gəlirlərinə və digər məsələlərə dair başlıca məlumatları təmin edib.

## Məqsədlər naminə təşviqat tədbirləri

Dayanıqlı inkişaf məqsədlərinin Azərbaycanda reallaşdırılması cəmiyyətin bütün təbəqələrinin DİM-lər barədə məlumatlı olmasını və hansı tədbirlər görə biləcəklərini anlamasını tələb edir. 2018-ci ildə BMT bu Məqsədlərin təbliğinə müxtəlif qrupları, o cümlədən özəl sektor, KİV, millət vəkilləri və ictimaiyyəti cəlb etmək üçün xüsusi səylər göstərib.

### Özəl sektor

BMTİP və Amerika Ticarət Palatasının Azərbaycan nümayəndəliyi ölkənin fəal biznes icmasının 20-dən artıq nümayəndəsini bir araya gətirərək təlim təşkil edib. Tədbirin məqsədi Azərbaycan şirkətlərinin DİM-ləri öz biznes portfellərinə daxil etmələrinə kömək etmək olub. Bununla yanaşı, milli inkişaf problemləri üçün innovativ həll variantlarının hazırlanmasını təşviq etmək məqsədilə, DİM-lərə dair Milli İnnovasiya Müsabiqəsinin ikinci mərhələsi təşkil edilib.

### Kənd təsərrüfatı sektoru

BMT-nin Ərzaq və Kənd Təsərrüfatı Təşkilatı (FAO) bu məqsədlərə Azərbaycanda nail olmaq üçün Dayanıqlı Məqsədlər üzrə Milli Əlaqələndirmə Şurası ilə sıx əməkdaşlıq şəraitində dayanıqlı ərzaq və kənd təsərrüfatının töhfəsinin artırılmasına dair milli seminar təşkil edib. Tədbirdə dövlət sektoru, özəl sektor, vətəndaş cəmiyyəti və akademik mərkəzlərin 180 nümayəndəsi iştirak edib. Eyni zamanda, FAO Kənd Təsərrüfatı Nazirliyi və İqtisadiyyat Nazirliyi ilə yaxından əməkdaşlıq edərək İsmayıllı və Xaçmaz rayonlarında ərzaq, kənd təsərrüfatı, meşə təsərrüfatı, balıqçılıq və aqrar inkişaf sahələrində fəaliyyət göstərən yerli maraqlı tərəfləri DİM-lərin sürətləndirilməsində yerli Dövlət-Özəl sektor-İctimaiyyət Tərəfdaşlığının töhfəsini müzakirə etmək məqsədilə bir araya gətirib.

### KİV

BMTİP və FAO-nun dəstəyi ilə jurnalist, yazar, bloqqer və vloqqerlər üçün bir günlük seminar keçirilib. Seminarın məqsədi onlara dayanıqlı inkişaf məqsədlərinə dair hekayələri öz auditoriyalarına maraqlı etməyin yollarını tapmaqda kömək etmək idi.

### Uşaqlar və gənclər

IDEA İctimai Birliyi və Təhsil Nazirliyinin tərəfdaşlığıvə UNICEF-in dəstəyi ilə 20 Azərbaycan məktəbi Dünyanın Ən Böyük Dərsi qlobal təşəbbüsünə qoşulub. Bu fəaliyyət əsas diqqətini ətraf mühit və iqlim dəyişmələrinə yönəltməklə, qlobal problemləri uşaqların gündəlik həyatına daxil edir. Azərbaycanda bu fəaliyyət qlobal məqsədləri 2400-dən artıq məktəbli üçün daha başa düşülən və mənalı anlayışlara çevirib.

Bununla yanaşı, Gənclər və İdman Nazirliyi ilə tərəfdaşlıq şəraitində 17 gənc lider DİM səfirləri seçilib və bu məqsədləri bütün ölkədə gənclər arasında təbliğ etmələri üçün zəruri bacarıq və vasitələrlə təmin edilib.

### İctimaiyyət

Şəhərin ən çox turist cəlb edən yerlərindən biri olan Bakı Bulvarında Azərbaycan və ingilis dillərində işıqlı stendlər quraşdırılıb. Bu stendlərdə hər bir kəsin qlobal məqsədlərə nail olmaq üçün görə biləcəyi işlər öz əksini tapıb. Oktyabr ayında isə qlobal məqsədlərə həsr olunmuş "Heç kim kənarda qalmasın" adlı mahnının rəsmi təqdimatı olub. Həmçinin, fevral ayından iyul ayınadək ASAN FM Radiosunda yayımlanan innovativ radio proqramında BMT təmsilçilərinin iştirakı ilə DİM-lərə həsr olunmuş "Qlobal Məqsədlər" verilişi yayımlanıb.

Ərzaq tullantıları haqqında qısa filmin alti ay boyunca, məşhur televiziya kanallarında (AzTv, İctimai TV və ATV) yayımlanması

“məsuliyyətli istehlak və istehsal” Məqsədi ilə bağlı məlumatlılığın artırılmasına xidmət edib. Ətraf Mühit Mühafizəsi Naminə Beynəlxalq Dialoq (IDEA) təşkilatı ilə əməkdaşlıq



*Yuxarıda: Bakı Bulvarında DİM-lərə dair məlumat lövhələri nümayiş etdirilir.*

şəraitində FAO-nun hazırladığı bu film BMT-nin Azərbaycandakı Nümayəndəliyi, IDEA və Cavan TV-nin sosial media platformalarında paylaşılıb.

300 nəfərdən artıq gənc fəal, BMT agentlikləri, vətəndaş cəmiyyəti və özəl sektor nümayəndəsi Bakıdakı Buzovna çimərliyinin sahillərində keçirilən təmizik kampaniyası zamanı təqribən beş ton plastik və digər tullantılar toplayıb. BMT-nin dəstəyi ilə Azərbaycanda keçirilən Ətraf Mühit Həftəsinin tərkib hissəsi olan bu tədbiri BMT-nin Bakı Ofisi, IDEA İctimai Birliyi, “Təmiz Şəhər” Açıq Səhmdar Cəmiyyəti və Azərbaycan Gənclər Fondu təşkil edib. Bunun ardınca bir sıra digər vətəndaş cəmiyyəti təşkilatları və özəl şirkətlər Xəzər dənizinin sahillərində oxşar kampaniyalar həyata keçirib.



*Yuxarıda: Bakının Buzovna qəsəbəsindəki çimərlikdə təmizlik aksiyası*





# Birinci strateji sahə:

*Şaxələndirilmənin artırılmasını və layiqli iş yerlərini dəstəkləyən dayanıqlı və inklüziv iqtisadi inkişafın təşviqi*

Dövlətin 2020-ci il Baxışının məqsədi səriştəli işçi qüvvəsi hesabına gücləndirilmiş və dövlətin regionları arasında maliyyə artımının balanslaşdığı daha şaxələndirilmiş və yüksək rəqabətqabiliyyətli iqtisadiyyat yaratmaqdır. 2018-ci ildə BMT-Azərbaycan Tərəfdaşlıq Çərçivəsi məşğulluq sahəsinin idarə edilməsinin təkmilləşdirilməsi, iqtisadiyyatın şaxələndirilməsi istiqamətində əldə edilmiş uğurlar və təcrid olunmuş əhalinin yeni bacarıq və məşğulluq imkanları ilə təmin edilməsi vasitəsilə bu məqsədə dəstək göstərilməsində irəliləyişə nail olub.

## 2018-ci ilin ən vacib məqamları

- 2018-ci ilin oktyabrında Prezident tərəfindən 2019-2030-cu illər üçün Milli Məşğulluq Strategiyası təsdiq edilib. Strategiya Azərbaycanda əmək resursları, məşğulluq və sosial müdafiənin daha təkmil idarə olunmasına imkan yaradır.
- Kənd yerlərində yaşayan qadınların öz biznes ideyalarını reallaşdırmalarına kömək edən olduqca müvəffəqiyyətli Qadın Resurs Mərkəzləri 2018-ci ildə üç əlavə rayonu da əhatə edərək 1000-dən artıq qadına dəstək göstərib. Bütün ölkə üzrə, ümumilikdə 6000-dək qadın bu xidmətlərdən faydalanıb.
- Üzvi (orqanik) kənd təsərrüfatının mənimsənilməsi və dəstəklənməsi üzrə yeni milli strategiya hazırlanıb və sertifikatlaşdırma sisteminin hazırlanması yekunlaşdırılmaqdadır. Bütün bu addımlar ölkədə fermerlər üçün gələcəkdə yeni imkanlar yaradacaq.

## Məşğulluq sektoru müəyyən faydalar əldə edib

2018-ci ildə işaxtaranlar və işçilər Tərəfdaşlıq vasitəsilə yekunlaşdırılmış yeni milli strategiya və çərçivələrdən faydalanmağa başlayıb. Minlərlə gənc, qadın və kənd yerlərində yaşayan insanlar yeni bacarıqlar və iş imkanları əldə edib.

### Yeni milli strategiya məşğulluq sektorunun idarə edilməsini təkmilləşdirməyə başlayır

Beynəlxalq Əmək Təşkilatının (BƏT) dəstəyi ilə hazırlanmış 2019-2030-cu illər üçün Milli Məşğulluq Strategiyası 2018-ci ilin oktyabrında Prezident tərəfindən təsdiq edilib. Bunun nəticəsində Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi əmək ehtiyatlarını, məşğulluğu və sosial müdafiəni daha yaxşı idarə edə biləcək. Məşğulluq strategiyası çərçivəsində Nazirliyin işə qəbul, təlim, ixtisasartırma və peşə yönləndirməsinə məsul 530 əməkdaşı BƏT-in dəstəyi ilə təşkil edilmiş təlim vasitəsilə yeni vacib bacarıqlar qazanıb. Bu onların insanlara, xüsusilə də gənc işaxtaranlara daha yaxşı xidmət göstərməsinə imkan verəcək.

Bununla yanaşı, BMTİP peşə təhsili sahəsində yeni qanunvericiliyin hazırlanmasına dəstək göstərib. Həmin qanunvericilik qüvvəyə mindikdən sonra Azərbaycanda ilk dəfə insanların qeyri-rəsmi təhsil vasitəsilə əldə etdiyi bacarıqların tanınmasına imkan yaradacaq. Bu isə bir çox işaxtaran şəxsin işədüzəlmə perspektivlərini artıracaq.

### Bazarın tələbini təmin etmək üçün yeni peşə təhsili kursları yaradılıb

Azərbaycanın Peşə Təhsili və Təlimi sistemi əmək bazarının artan tələbinə cavab verən səriştəli və bacarıqlı işçi qüvvəsinin hazırlanmasında çox vacib rol oynayır. Digər mərkəzlərin və ümumilikdə bu sektorun iş üçün hazır, onların bacarıqlarına tələbat duyan əmək bazarına daxil ola bilən insanları yetişdirmək üçün necə təkmilləşdirilə biləcəyini nümayiş etdirmək məqsədilə BMTİP Təhsil Nazirliyi və Peşə Təhsili üzrə Dövlət Agentliyi ilə birgə iki prioritet mərkəzdə (Cəlilabad və Gəncə) iş aparır. 2017-ci ildə keçirilmiş əmək bazarı araşdırmaları nəticəsində yaradılan hər iki mərkəz hazırda bazarın tələblərinə uyğun olaraq altı yeni peşə üzrə kurslar təklif edir. Şərabçılıq, çayçılıq və çiyələk istehsalı kimi böyüməkdə olan sənaye sahələrini əhatə edən bu kurslar yeni tələbələrin diqqətini cəlb edib. 2017-ci ildən etibarən kurslara qəbul Cəlilabadda 22 faiz, Gəncədə isə 9,5 faiz artıb.

*2017-ci ildən etibarən kurslara qəbul Cəlilabadda 22 faiz, Gəncədə isə 9,5 faiz artıb*

### Kənd yerlərində yaşayan gənclər yeni bacarıqlar və gəlir imkanları əldə edirlər

Azərbaycanda, xüsusilə də regionlarda yaşayan gənclərin (əhalinin təqribən 30 faizini təşkil edir) bacarıq və gəlir imkanları əldə etməsinə dəstək Tərəfdaşlıq Çərçivəsinin ən vacib elementlərindən biridir. 2018-ci ildə BMTİP-nin dəstəklədiyi iki mərkəzdə tətbiq edilmiş İnnovasiya və Məşğulluq Sistemləri Laboratoriyası (SYSLAB) metodu öz bəhrəsini verməyə davam edib. SYSLAB metodu müasir iş axtarma üsullarından istifadə edir, eləcə də sahibkarlığı, şəxslərarası şəbəkələşməni və ofis bacarıqlarını təşviq edir. 2016-cı ildən etibarən bu iki mərkəz 275 gənc üçün təlimlər keçib. İştirakçıların 55 faizini qadınlar təşkil edib və proqram məzunlarının 66 faizi iş tapıb. 2018-ci ildə 53 faizi qadın olmaqla, 86 gənc üçün təlim keçirilib və ( onlardan 64-ü iş tapıb. SYSLAB xidmətləri, həmçinin üçüncü bir rayona – Zaqatalaya doğru genişləndirilib. Ətraf rayonlarda daha çox gənci əhatə etmək məqsədilə, yeni Səyyar SYSLAB təsis edilib. Bunun vasitəsilə beş rayonda 100 gənc (41 faizi qadın olmaqla) xidmətlərdən yararlanıb.

### Kənd yerlərində yaşayan qadınların öz biznes ideyalarını həyata keçirmələrinə dəstək göstərilib

Qadınlara bir araya gəlmək, şəbəkələşmək, fikir mübadiləsi aparmaq, tərəfdaşlıq yaratmaq, maddi kapital cəlb etmək, özünə inam əldə etmək və peşəkar olaraq inkişaf etmək imkanlarının təmin edilməsi onların



**Azərbaycanın Qadın Resurs Mərkəzlərinin bir neçə ilhamverici məzunu ilə görüş**

*Yuxarıda: Gülnar rayon mərkəzində qadınlar üçün ilk dəfə olaraq idman salonu açıb. Onun salonuna müntəzəm üzv olan təqribən 30 nəfər müştərisi var. Salonun özü də qadınlar üçün müsbət məkan təsiri bağışlayır. Ən yaxınlıqda yerləşən qadın resurs mərkəzi Gülnarın ideyasını biznes plana çevirmək üçün onunla çalışıb və həmçinin ona ilk avadanlıqlarını satın almaqda və məkanını təmir etdirməkdə kömək edib. Gülnar deyir: "Mən Mərkəzdə digər kəndlərdən və rayonlardan olan qadınlarla dostluq və əlaqələr qurdum. Düşünürəm ki, Mərkəz bizim hamımızın özümüzü cəmiyyətdə qadın olaraq necə görməyimizlə bağlı baxışlarımızı dəyişdi".*







*Sol: Şəkildə öz dərzi emalatxanasında işləyən zaman görüntülənən Rəşadə Əsədova deyir: "Bu mənə çox asan gəldi. Əslində, mən heç vaxt düşünməzdim ki, biznes-plan hazırlaya bilərəm. Lakin onlar mənə ciddi yanaşdılar və mən təlimlərə başladım". | Orta: Rəna Mehrəliyeva toyqabağı mərasimlər biznesi qurub | Sağ: Gövhər Xanhüseynovanın yeni çörək dükanı günü-gündən böyüyür*

həyatlarında dəyişiklik yaradabilər. Xüsusilə, kənd yerlərində və ucqar ərazilərdə belə imkanlar qadınlara öz hüquqları haqqında daha çox öyrənməyə, potensiallarını kəşf etməyə və əvvəllər öhdəsindən gəlinməsi mümkünsüz görünən maneləri aradan qaldırmaq üçün faydalı ola bilər. Azərbaycanda fəaliyyət göstərən Qadın Resurs Mərkəzləri məhz bu işlə məşğuldur.Kənd yerlərində yaşayan qadınların öz bizneslərini yaratmalarına kömək etmək üçün onları lazımi vasitə və resurslarla təmin edirlər.

2011-ci ildə fəaliyyətə başladıqları vaxtdan etibarən, Qadın Resurs Mərkəzləri 6000-dən çox qadına bir sıra peşəkar və fərdi bacarıqlara dair pulsuz təlim kursları təşkil edib. Buraya mühasibat və maliyyə savadlılığı, kompyuter elmləri, fandreyzinq, insan haqqları və iqtisadi hüquqlar, rezumenin yazılması, təqdimat bacarıqları və şəbəkələşmə mövzuları aiddir. 2018-ci ildə BMTİP bu vacib, həyatları dəyişdirən Mərkəzlərin təşkilati potensialını gücləndirmək məqsədilə digər tərəfdaşları (Avropa İttifaqı, USAID-ABŞ-ın Beynəlxalq İnkişaf Agentliyi, Coca-Cola Fondu, İsveçrə hökuməti və Avstriya hökuməti) ilə birgə maliyyə dəstəyi və texniki dəstək göstərməyə davam edib. Bu isə həmin xidmətin əlavə üç rayonda (Xəzər, Zaqatala, Qusar) da tətbiqinə imkan yaradıb. Beləliklə, hazırda bütün ölkə üzrə ümumilikdə, səkkiz Mərkəz fəaliyyət göstərməkdədir. Mərkəzin xidmətlərindən 1106 nəfər qadın faydalanıb (48 faizi kəndlərdən və 20 faizi 25 yaşından kiçik qadınlar olmaqla). Layihənin nüfuzu getdikcə artır. Layihə Avropa İttifaqı tərəfindən 2018-ci ilin iyun ayında Brüsseldə nümayiş etdirilib.

## İqtisadiyyatın şaxələndirilməsi

Hökumətin inkişafa dair baxışının əsas elementlərindən biri olan daha şaxələndirilmiş iqtisadiyyatı ehtiva edən Tərəfdaşlıq Çərçivə sənədi 2018-ci ildə kənd təsərrüfatı və informasiya-kommunikasiya texnologiyaları (İKT-lər) kimi yüksək potensiala malik sahələrdə ciddi irəliləyiş əldə olunmasını dəstəkləyib.

### Yeni milli strategiya və qanunvericilik üzvi (orqanik) təsərrüfat imkanları üçün qapıları yenidən açır

Azərbaycan çoxsaylı bitkilərin vətənidir. Buna baxmayaraq, aqrar məhsuldarlıq və mənfəətlilik aşağı olaraq qalır və bu da kənd təsərrüfatının artımını, dayanıqlı kənd təsərrüfatı ərzaqlarının istehsalını və kənd əhalisinin gəlirlərini azaldır. Təqribən on il əvvəl Avropada orqanik bazarların inkişafına paralel olaraq, Azərbaycanda da əsaslı hərəkat formalaşdı və orqanik kənd təsərrüfatı sahəsində qanunvericilik

*Sertifikatlaşdırma sistemi fermerlər üçün yeni imkanlar yaradır*

hazırlandı. Lakin milli orqanik sistemin ümumi idarəçiliyində çatışmazlıqlar mövcuddur, eləcə də qanunvericilik və bu sahə ilə əlaqədar qaydalar həyata keçirilməyib. FAO-nun və müvafiq nazirliklərin birgə səyləri ilə üzvi (orqanik) kənd təsərrüfatının adoptasiyası və dəstəklənməsinə dair yeni milli strategiya hazırlanıb, eyni zamanda, sertifikatlaşdırma sistemi yekunlaşdırılmaq üzrədir. Bu addımlar bütün ölkədə fermerlər üçün bu sahədə yeni imkanlar yaradır.



*Yuxarıda: Tərəfdaşlıq Çərçivəsi sayəsində, fermerlərə məhsuldarlığın artırılması baxımından dəstək göstərilir.*

### Yeni strategiyada kənd təsərrüfatının məhsuldarlığının artırılmasındakı maneələr aradan qaldırılıb

Torpaqların həddindən artıq çox bölünməsi və fermaların orta ölçüsünün kiçik olması kənd təsərrüfatı sektorunun potensialının reallaşdırılması üçün əsas struktur maneələrindən birini təşkil edir. 2018-ci ildə FAO hökumətə bu problemin aradan qaldırılmasına yardım edəcək Torpaqların Konsolidasiyası üzrə Milli Strategiyasını hazırlamaqda texniki dəstək göstərib. Bu fəaliyyətə Şorsulu pilot kəndində təkrar bölüşdürmə planının hazırlanması aid idi. Bundan əlavə, Kənd Təsərrüfatı Nazirliyinin və digər müvafiq qurumların siyasətin monitorinqi və təhlili, həmçinin aqrar siyasətin modelləşdirilməsi sahəsində bacarıqları artırılıb.

### Yeni ixrac bazarı potensialı aşkar edilib və beynəlxalq aqrar ticarətə dəstək göstərilib

BMTİP Cənubi Qafqaz Regional Ticarət Araşdırmasına böyük töhfə verib. Bu innovativ araşdırma inkişafa və yoxsulluğun azaldılmasına töhfə verməklə ticarət siyasəti və sadələşdirilməsinin regional ticarəti genişləndirmək üçün necə istifadə oluna biləcəyini öyrənib. Hesabatın nəticələrinə əsasən, təhlilin nəticələrindən başqa məqsədlər üçün də istifadə imkanları araşdırılacaq.

Eyni zamanda, FAO hökumətin bitkilərin diaqnostikası, araşdırma, idxal və ixrac olunan kənd təsərrüfatı məhsulları ilə əlaqədar müvafiq prosedurlar sahəsində potensialının artırılmasına kömək edib. Bu fəaliyyətə Milli Fitosanitariya Laboratoriyasının və Respublika Karantin Ekspertiza Mərkəzinin müasirləşdirilməsi, müasir laboratoriya avadanlığı, idarəetmə planının hazırlanması, laboratoriya işçiləri üçün çoxsaylı təlimlər, eləcə də Avropa, Rusiya və Türkiyəyə tədqiqat turları aiddir. Həmçinin, Azərbaycan



*Yuxarıda: FAO bitkilərin və bitki məhsullarının ixracının sertifikatlaşdırılması sahəsində təlimlər keçib (Bakı və Xaçmaz)*

Respublikasının Qida Təhlükəsizliyi Agentliyində (AQTA) kompyuterləşdirilmiş məlumat bazası – vahid Avtomatlaşdırılmış İdarəetmə Sistemi yaradılıb.



*Yuxarıda: Bu fəaliyyət vasitəsilə dəstəklənmiş ailə biznesləri Balakəndə məskunlaşmış məcburi köçkün icmasındakı Qarabağ sənətkarlarının qoruduğu ənənəvi xalça toxumadan dayanıqlı şəkildə və orqanik südlə hazırlanan, tərkibində hormonlar olmayan dondurmayadək bir sıra sənaye sahələrində ixtisaslaşırlar.*

### Ailə təsərrüfatları daha böyük bazarlara çıxmaq üçün bacarıq və avadanlıqlarla təmin edilir

Azərbaycanda kənd yerlərində yaşayan, öz yaşayışlarını təmin etmək üçün evdə hazırlanmış məhsullar, məsələn, kənd təsərrüfatı ərzaqları, yaxud sənətkarlıq məhsulları və əl işləri satan ailələrin çoxu öz məhsullarını daha böyük bazarlara çıxarmaq üçün maneələrlə üzləşirlər. Ailələrin bu maneələrin öhdəsindən necə gələ biləcəklərini göstərmək məqsədilə, 2018-ci ildə BMTİP publik-hüquqi şəxs ABAD-la tərəfdaşlıq edib. Bu iki təşkilat vətəndaşların öz bizneslərini inkişaf etdirmələrinə kömək məqsədilə, altı rayonda (Balakən, Qax, Qəbələ, Oğuz, Şəki və Zaqatala) seçilmiş 44 ailə ilə iş aparıb. Tərəfdaşlıq vasitəsilə həmin ailələrə qablaşdırma və maddi-texniki təchizat, maliyyə savadlılığı, ticarət nişanlarının hazırlanması və satış kimi sahələrdə təlimlər verib. Onlara, həmçinin biznes planların hazırlanmasında dəstək göstərilib və avadanlıqlar təmin edilib. Cəlb edilmiş 44 ailədən 23-ü qadınların rəhbərlik etdiyi biznes idi. 12 ailə isə müharibə nəticəsində evlərindən didərgin düşmüş və məcburi köçkünə çevrilmiş ailələr olub. İlin sonunadək 23 ailə yeni istehsal planları ilə fəaliyyətə başlamağa hazır olub. Onların təcrübəsindən kənd yerlərində yaşayan digər ailələrin də gələcəkdə öz bizneslərini inkişaf etdirmələrinə kömək etmək üçün istifadə ediləcək.

### İKT-lər vasitəsilə iqtisadiyyatın şaxələndirilməsinə kömək məqsədilə innovativ ideyalar nümayiş etdirilib və dəstəklənib

İnformasiya və kommunikasiya texnologiyaları (İKT-lər) Azərbaycanın öz iqtisadiyyatını şaxələndirmək səylərində olduqca vacib rol oynayır. İKT-lər həmçinin digər sahələrin inkişafına və daha effektiv dövlət xidmətlərinin göstərilməsinə imkan yaradır. BMT bu sektoru daha da inkişaf etdirmək və innovatorların öz texnologiyalarını hazırlamalarına, təqdim etmələrinə və bazara çıxarmalarına dəstək göstərmək (xüsusilə də əsas şəhərlərdən kənarda yaşayanlara) məqsədilə kömək göstərir.

2018-ci ildə BMTİP-nin dəstəyi ilə keçirilən "İdeyadan biznesə startap turları" müsabiqəsində öz konsepsiyalarını təqdim etmək üçün regional texnologiya startapları müsabiqə keçirilib. Turlar çərçivəsində yeddi rayon və şəhər (Mingəçevir, Lənkəran, Quba, Sumqayıt, Şəki, Gəncə və Bakı) ziyarət edilib və 1000-dən artıq müəssisəyə öz ideyalarını nümayiş etdirmə imkanı verilib. Turlar startup hərəkatına geniş maraq doğurub və iştirakçıların öz ideyalarını yalnız təqdim etmələrinə deyil, həmçinin həmin ideyaları daha da inkişaf etdirmək üçün rəylər əldə etməsinə şərait yaradıb. Turların gələcəkdə digər rayonları da əhatə edəcək.

2018-ci ildə Azərbaycan, BMTİP və digər tərəfdaşlar, o cümlədən Kiber İdman Federasiyası, Keepface ("influenser" marketinq platforması) və Microsoft Corporation şirkətinin dəstəyi ilə birinci Beynəlxalq İnnovasiya Həftəsinə ev sahibliyi edib. Tədbirdə BMTnin hazırlandığı dörd hesabat təqdim edilib. Bu hesabatlarda yüksək texnologiyalardan iqtisadiyyatı daha da stimullaşdırmaq üçün istifadə yolları öz əksinin tapıb. Tədbir çərçivəsində bir sıra konfrans, forum və sərgilər, həmçinin innovasiya müsabiqələri keçirilib.




*Yuxarıda: Bakı Mühəndislik Universitetinin yeni onlayn platforma təklif edən "Gonex" layihəsi "İdeyadan biznesə" müsabiqəsində birinci yeri tutub. Eyni zamanda, Sumqayıt şəhərinin tullantılardan enerji əldə etmə təşəbbüsünü irəli sürən "Ağıllı reaktiv" layihəsi ikinci yeri, Naxçıvan şəhərinin ekstremal idman növləri və kampçılıq turizmi üzrə platforma təklif edən "Noohland" layihəsi isə üçüncü yeri tutub.*

## Münaqişədən və çətin həyat şəraitindən aziyyət çəkən insanlar üçün yeni imkanlar

2018-ci ildə Azərbaycan Respublikası Ərazilərinin Minalardan Təmizlənməsi üzrə Milli Agentlik (ANAMA) uğurlu fəaliyyətlərinin 20 illiyini qeyd edib. ANAMA 533 milyon kvadrat metrdən artıq Azərbaycan torpaqlarını minalardan tamamilə təmizləyib. Bu da həmin ərazilərdəki insanların öz həyatlarını yenidən qurmalarına və iqtisadi fəaliyyətlərinə davam etmələrinə imkan verib. Təqribən 800 000 ədəd mina və digər partlayıcı silah-sursat tamamilə məhv edilib. ANAMA müharibə nəticəsində öz yurdlarından məcburi köçkün düşmüş 160 000 nəfərdən çox əhalinin yenidən həmin ərazilərə yerləşdirilməsi üçün təhlükəsiz şərait yaradıb.

Minaların təmizlənməsi fəaliyyətlərini davam etdirmək (60 milyon kvadrat metr) və zərər çəkmiş ərazilər üçün minatəmizləmə ilə bağlı həll variantları təklif etmək məqsədilə, BMTİP



*Yuxarıda: Əhalinin həssas qruplarının özünüməşğulluq imkanlarını yaxşılaşdırmaq və onların dayanıqlılığını artırmaq məqsədilə USAİD-in dəstəyilə BMqT kiçik sahibkarlıqla bağlı təlimlər təşkil edib.*

2018-ci ildə ANAMA-ya dəstək göstərməyə davam edib. ANAMA-nın mina riskərinə dair təhsil proqramları hazırda 50 000-dən artıq məktəbliyə çatdırılır. Digər müvafiq nazirliklərin dəstəyi ilə mina partlayışlarından sağ qurtulmuş şəxslərə tibbi qayğı göstərilir və onlar üçün fiziki reabilitasiya proqramları təmin edilir. ANAMA, həmçinin zərər çəkmiş şəxslərin və onların ailələrinin həyat şəraitini yaxşılaşdırmaq məqsədilə mikro-kredit təşəbbüsünü idarə edir və yeni bacarıqlar qazanmaq üçün xalça toxuma seminarları kimi əl əməyi bizneslərinin inkişaf etdirilməsi fəaliyyətlərinə rəhbərlik edir.

Eyni zamanda, Yol xəritəsinin qaçqınların Azərbaycana inteqrasiyası ilə bağlı tövsiyəsinin Nazirlər Kabinetinə təqdim edilməsinə baxmayaraq, qaçqınların qanuni şəkildə işləmək hüquqları yoxdur. 2018-ci ildə BMT-nin Qaçqınlar üzrə Ali Komissarlığı (BMT QAK) üçüncü ölkələrdən olan qaçqınların və sığınacaq axtaran şəxslərin, eləcə də vətəndaşlığı olmayan şəxslərin layiqli iş əldə etməsini təmin etmək məqsədilə təşviqat fəaliyyətlərini davam etdirib.



*Yuxarıda: BMTİP-nin dəstəyi ilə ANAMA yeni fəaliyyətə başlamış bir təşkilatdan minaların təmizlənməsi, risklərə dair təhsilin təmin edilməsi, həmçinin mina və silah-sursat partlayışlarından sağ qurtulmuş şəxslərə kömək edilməsi üçün tələb edilən biliklərə və ən müasir infrastruktura malik yaxşı təchiz edilmiş milli quruma çevrilib. O, digər ölkələrdə, o cümlədən Gürcüstan, Türkiyə və Əfqanıstanda da milli minatəmizləmə proqramlarına yardım göstərib.*



BÖLMƏ 2: ƏSAS NƏTİCƏLƏR

# İkinci strateji sahə:

*İnstitusional potensialın və effektiv ictimai-sosial xidmətlərin gücləndirilməsi*



Azərbaycan dövlət xidmətlərin müasirləşdirilməsi də daxil olmaqla, geniş miqyaslı islahatları həyata keçirməklə sürətli sosial-iqtisadi dəyişikliklər yaşayır. 2018-ci ildə BMT-Azərbaycan Tərəfdaşlıq Çərçivə sənədi qurumun faktlara əsaslanan və şəffaf şəkildə həyata keçirilən qanunlar, siyasətlər və tədbirlər planları hazırlama imkanını artırmaqla, bu olduqca vacib prosesə dəstək göstərib. Tərəfdaşlıq Çərçivəsi, həmçinin milli qurumların və onların işçilərinin sosial xidmətlər göstərmə və Azərbaycanın sərhədlərinin təhlükəsizliyini təmin etmə bacarıqlarının gücləndirilməsinə kömək edib. Aztəminatlı insanları əhatə edən xidmətlərin davam etdirilməsini təmin etmək məqsədilə görülən işlər diqqətdən kənarda qalan şəxslərə dəstək göstərilməsinin innovativ üsulları ilə sınaqdan keçirilib və ya genişləndirilib.

## 2018-ci ilin əsas məqamları

- ✓ Dövlət xidmətlərinin təqdim olunması işinin təkmilləşdirilməsinə yönələn "Mobil imza" adlı yeni təşəbbüs sayəsində elektron idarəçilik sahəsində irəliyə addımlar atıldı. Əcnəbilər və Azərbaycan vətəndaşları indi dövlət sərhədlərini keçərkən informasiya və xidmətləri daha asanlıqla əldə edə bilirlər.
- ✓ 2018-ci ildə uşaq-mərkəzli və bərabərliyə yönəlmiş yeni kompleks sosial xidmət paketinin sınaqdan çıxarılması ilə uşaqların müdafiəsinə hərtərəfli yanaşma istiqamətində önəmli addım atılıb.
- ✓ Beş yaşlı uşaqlar arasında birillik məktəbəqədər təhsil alma səviyyəsi 2014-cü ildə mövcud olmuş 14.2 faiz göstəricisindən 2018-ci ildə 75 faizədək yüksəlib.
- ✓ 2017-2020-ci illər üçün Milli Reproduktiv Sağlamlıq Strategiyası hazırlanıb.

## Qurumlar özlərinin effektiv və şəffaf xidmətlər göstərmə potensiallarını gücləndirirlər

### E-idarəetmə inkişaf edir

Hökumət BMTİP-nin dəstəyi ilə ilk dəfə olaraq "Mobil imza" adlı yeni təşəbbüsə başlayıb. Bu təşəbbüs rəqəmsal hökumətə keçidin sürətləndirilməsinə töhfə verərək, vətəndaşlara şəffaf, operativ və resurslara qənaət edən elektron xidmətlər vasitəsilə dövlət xidmətlərinin göstərilməsinə kömək edəcək.

### Qurumlar mühüm səhiyyə problemlərini aradan qaldırmaq üçün öz bacarıqlarını artırırlar

BMT-nin Əhali Fondu (UNFPA) və Ümumdünya Səhiyyə Təşkilatının (ÜST) dəstəyi ilə 2017-2020-ci illər üçün Milli Reproduktiv Sağlamlıq strategiyası hazırlanıb. UNFPA səhiyyə işçiləri üçün təlimin keçirilməsini, həmçinin layihə sənədinin təqdimatı tədbirləri (may 2017) üçün maddi-texniki təchizatın təmin edilməsini maliyyələşdirib. ÜST yerli işçi qrupları ilə birlikdə strategiya sənədinin və tədbirlər planının hazırlanmasını əlaqələndirən beynəlxalq mütəxəssis cəlb edib. Sənədlər təsdiq edilmək üçün Nazirlər Kabinetinə təqdim edilib.

Eyni zamanda, UNFPA reproduktiv sağlamlıq sahəsində təlimlər və resurs paketlərindən istifadə imkanının təmin edilməsi vasitəsilə 200-dən artıq məsul şəxsin bacarıqlarının artırılmasını dəstəkləyib. Ümumdünya Səhiyyə Təşkilatı isə (ÜST) Səhiyyə Nazirliyi ilə tərəfdaşlıq edərək yoluxucu bakterial meningit, poliomielit, AEFI rotavirusu və peyvəndlərin effektiv idarə edilməsi üzrə milli cavab tədbirləri ilə bağlı bacarıqları artırmaq məqsədilə, bir sıra təlimlər və təşviqat tədbirləri təşkil edib.

### 2019-cu ildə həyata keçiriləcək əhalinin siyahıyaalınmasına hazırlıq

2019-cu ildə həyata keçiriləcək əhalinin siyahıyaalınmasına hazırlıq dönəmində, BMTİP 2018-ci ildə milli kadrlar üçün bir sıra təlim və seminarlar keçməklə, həmçinin əsas müvəkkillik və məlumatlılığı artırma fəaliyyətlərinin təqdim edilməsinə kömək edərək, hökuməti ən vacib dəstəklə təmin edib. Nümunə kimi,əhalinin siyahıyaalmanın məqsəd və məzmununa dair məlumatlılığını artırmaq üçün bir neçə təbliğat fəaliyyəti (məsələn, məlumat lövhələri, posterlər, sənədli filmlər) qeyd etmək olar. Onlardan ölkə miqyasında əhalinin siyahıyaalmada fəal iştirakını stimullaşdırmaq üçün istifadə ediləcək. UNFPA,həmçinin Dövlət Statistika Komitəsinə Qəbələdə pilot siyahıyaalma həyata keçirməkdə dəstək göstərib.

## İctimai-sosial xidmətlərdən bərabər istifadə imkanları artıb

2018-ci ildə Tərəfdaşlıq Çərçivəsi sosial xidmətlərin cəmiyyətin bütün üzvləri, o cümlədən uşaqlar, qadınlar və əlilliyi olan şəxslər üçün əlçatan olmasını təmin etmə fəaliyyətlərində hökumətə dəstək göstərməyə davam edib.

### Uşaqlar üçün erkən təhsil və səhiyyə imkanları genişlənib

UNICEF erkən uşaqlıq dövründə uşaqların məktəbəqədər təhsil imkanlarını artırmaq məqsədilə dəstəyini davam edib. Bunun nəticəsində, beş yaşlı uşaqlar arasında birillik məktəbəqədər təhsildə iştirak səviyyəsi 2014-cü ildə mövcud olmuş 14.2 faiz göstəricisindən 2018-ci ildə 75 faizədək artıb. 61 regionda 4600-dən artıq müəllim üçün keçirilən pedaqoji təlim proqramı 103 000 uşağı əhatə etməklə, qeyd edilən göstəriciyə nail olunmasında rol oynayıb. Eyni zamanda, 15 rayonda 100 erkən təhsil mərkəzində həyata keçirilmiş icma əsaslı erkən təhsil proqramı vasitəsilə təqribən 3000 uşaq (3-4 yaşlı) cəlb olunub.

Bundan əlavə, UNICEF uşaqların sağlamlığı ilə əlaqədar, əsas səhiyyə müəssisələrində çalışan 600-dən artıq azərbaycanlı mütəxəssisin uşaqların inkişafının müşahidəsi sahəsində yeni bacarıqlar əldə etməsinə dəstək göstərib. Mütəxəssis xidmətlərinə müraciət edən uşaq sayı31 faizədək (2015-2017-ci illərdə) artıb. Bu, artımın müşahidə edildiyi xidmətlər sırasındadır. Bu statistika, erkən uşaqlıq dövründə inkişaf ləngimələrində artım ehtimalını və əlilliyin daha yaxşı müəyyənləşdirilməsini göstərir.

Eyni zamanda, UNICEF və ÜST-nin hazırladığı son qaydaların yenilənməsi və Səhiyyə Nazirliyi daxilində müvafiq işçi qrupunun yaradılması ilə Azərbaycanda Uşaqlar üçün Münasib Xəstəxana Təşəbbüsünün bərpasına başlanınılıb. Bu təşəbbüs səhiyyə işçilərinin və valideynlərin körpələrə erkən qayğı göstərmələrinə dəstək məqsədilə əsas standartvə təcrübələri formalaşdırılacaq.

### Əlilliyi olan şəxslərə, xüsusilə, uşaqlara dəstək ahəsində ciddi irəliləyiş əldə olunub

2018-ci ilin mayında Prezident sərəncamı ilə uşaqlıq dövrünə xas olan əlilliyin erkən profilaktikası və müalicəsi üzrə Milli Fəaliyyət Planı təsdiq edilib. Fəaliyyət Planının məqsədi uşaqlıq dövrünün doğuşa qədərki, doğuşdan sonrakı və daha sonrakı mərhələlərində risk faktorlarının və xəstəliklərin erkən aşkarlanması vasitəsilə uşaqlar arasında əlilliyin geniş yayılmasını və kəskinliyini azaltmaqdır.

Eyni zamanda, UNICEF Azərbaycan Prezidentinin 2017-ci ilin dekabrında təsdiq etdiyi İnklüziv təhsilə dair Dövlət Proqramının həyata keçirilməsində Təhsil Nazirliyinə dəstək




### Ana südü ilə qidalandırma kampaniyası yüzlərlə insanı əhatə edib

*Yuxarıda: UNICEF-in texniki və maliyyə dəstəyi ilə 2018-ci ildə körpələrin sadəcə ana südü ilə qidalandırılması sahəsində geniş miqyaslı məlumat kampaniyası həyata keçirilib. Oktyabr ayına təsadüf edən Ana Südü ilə Qidalandırma Milli Həftəsi ərzində bütün ölkə üzrə insanlara ictimai xidmət elanları və səhiyyə müəssisələrində, eləcə də ASAN mərkəzlərində posterlər və broşuralar vasitəsilə bu məsələ barədə vacib mesajlar çatdırılıb. Eyni zamanda, Bakının beş metro stansiyasının hər gün təqribən 500 000 insanın keçdiyi əraziləri banner və məlumat lövhələri ilə bəzədilib. Keçirilən digər tədbirlər də ana südü ilə qidalandırmanın təbliği məqsədilə mütəxəssislərin analarla əlaqələndirilməsinə vəsilə olub.*

göstərib. 2015-ci ildən icrasına başlanılmış mövcud pilot fəaliyyətə əsaslanmaqla, inklüziv təhsilə daha kompleks yanaşma hazırlanıb və müəllimlər üçün fəaliyyətə başlamazdan əvvəl və fəaliyyətləri dövründə inklüziv təhsilə dair təlimlər üzrə təhsil paketi vasitəsilə həyata keçirilib. İnklüziv təhsil proqramına dəstək məqsədilə, 2018-ci ildə əlilliyi olan uşaqlarla bağlı bilik, münasibət və praktikaya dair araşdırma yekunlaşdırılıb, Sosial Dəyişiklik Strategiyası üzrə kompleks məlumat isə hazırlanmaqdadır. Bu məlumatın vəzifələri əlilliyi olan uşaqların stiqma, ayrı-seçkiliyə məruz qalması və təcrid olunması hallarını azaltmaq və daha inklüziv cəmiyyət formalaşdırılmasına dəstək göstərməkdir.

Eyni zamanda, BMTİP-nin dəstəyi ilə təqribən 30 vətəndaş cəmiyyəti təşkilatı əlilliyi olan uşaqları öz fəaliyyətlərinə cəlb edib. Bu fəaliyyət bir sıra müsbət nəticələr verib. Lakin onun ən əsas təsirlərindən biri Şirvan Regional Uşaq Ruhi Sağlamlığı Departamentində müşahidə edilib. Belə ki bu qurum Şirvan və 7 ətraf rayondan olan təqribən 100 000 aztəminatlı uşağa və onların ailələrinə çoxsaylı psixoloji  və inkişafla bağlı xidmətlər göstərməyə qadir vəziyyətə gətirilib.

## İnnovativ üsullardan istifadə vasitəsilə ən vacib xidmətlərin aztəminatlı insanlara çatmasının təmin edilməsinə dəstək

Xidmətlərin inklüzivliyinin təmin etmək üçün məcburi köçkün, qaçqın və çətinlikləri olan digər insanların əhatə olunması üçün effektiv yolların tapılmasının vacibdir. Ən çətin şəraitdə yaşayan insanların ən vacib xidmətlərdən istifadə edə bilməsi üçün Tərəfdaşlıq Çərçivəsinə uyğun olaraq, 2018-ci ildə də bu sahədə işlər davam etdirilib.



### Ən çətin vəziyyətdə olan şəxslərə hüquqi yardımın göstərilməsi

*Yuxarıda: 2018-ci ildə BMT-nin İnsan Hüquqları üzrə Ali Komissarlığının Ofisi (OHCHR) Ombudsman və Vəkillər Kollegiyası ilə əməkdaşlıq şəraitində Bakıda bir hüquq resurs mərkəzinə, Azərbaycanın rayonlarında isə yerində hüquqi yardım xidmətlərinə dəstəyini davam etdirib. Nəticədə, həssas qruplar, o cümlədən əlilliyi olan şəxslər, aztəminatlı şəxslər və gender zorakılığından zərər çəkmiş şəxslər üçün pulsuz hüquqi xidmətlər təmin edilib. 2018-ci ilin dekabrınadək Bakı şəhərində və rayonlarda 355-dən çox şəxsə çoxsaylı məsələlərə dair hüquqi yardım göstərilib (207 iş). Eyni zamanda, BMT QAK qaçqınlara, sığınacaq axtaranlara və məcburi köçkünlərə hüquqi məsləhət və yardım göstərməyə davam edib.*

### Uşaqların müdafiəsinə tam kompleks yanaşmaya doğru əsas addımlardan biri atılıb

UNICEF və Əmək və Əhalinin Müdafiəsi Nazirliyi 2018-ci ildə iki rayonda kompleks sosial xidmətlər üzrə pilot təşəbbüsə başlayıb. Məqsəd 2017-ci ildə hazırlanmış Uşaq-mərkəzliıvə Bərabərliyə Yönəlmiş Sosial Xidmət Strategiyasının həyata keçirilməsi vəziyyətini yoxlamaq, nəticələri qiymətləndirmək və Strategiyaya lazımi düzəlişlər etmək olub. Bu təşəbbüs sosial xidmətlərə və uşaqların müdafiəsinə kompleks yanaşmanın əsasını qoyur. Bu, sosial xidmətlər üzrə işçi qüvvəsinin formalaşdırılması, uşaqlara göstərilən sosial xidmətlərə dair minimum standartların müəyyənləşdirilməsi, həmçinin yerli əlaqələndirmə və yönləndirmə sistemlərinin gücləndirilməsi vasitəsilə həssas qrupa aid uşaqlar və onların ailələri üçün peşəkar və keyfiyyətli sosial işin tətbiqinə əsaslanan yanaşmadır.

Bu təşəbbüs uşaqların müdafiəsinə tam kompleks yanaşma istiqamətində mühüm addımlardan biri və həssas uşaqlara və onların ailələrinə kompleks dəstək göstərilməsi istiqamətində müxtəlif tərəfləri bir araya gətirən ciddi irəliləyişdir. Təkcə 2018-ci ilin sentyabr-noyabr aylarında bu iki rayonda həmin təşəbbüsdən 240-dan artıq uşaq birbaşa faydalanıb.

### Qaçqınlara və vətəndaşlığı olmayan şəxslərə dəstək

2018-ci ildə BMT QAK qaçqın və vətəndaşlığı olmayan şəxslərin ibtidai və orta təhsil almasına köməyini davam etdirib. İbtidai təhsil yaşında olan qaçqın və vətəndaşlığı olmayan uşaqların təqribən 78.3 faizi, orta təhsil yaşında olan qaçqın və vətəndaşlığı olmayan uşaqların isə təqribən 65.9 faizi dövlət təhsil müəssisələrinə qəbul olunub.

2018-ci ildə qaçqın və sığınacaq axtaran şəxs mandatına malik olanlar dövlət səhiyyə müəssisələrində əsas xidmətlərdən pulsuz istifadə imkanından faydalanmağa davam edib. BMT QAK-ın əsas səhiyyə xidmətlərinin göstərilməsi sahəsində müdaxilə fəaliyyəti onların da yerli əhali ilə eyni xidmətlərdən istifadə edə bilməsini təmin etmək məqsədilə səhiyyə müəssisələrinin monitorinqini əhatə edib.

BMT QAK, həmçinin 581 qaçqın və sığınacaq axtaran şəxsin əlavə səhiyyə xidmətləri ilə təmin edilməsinə birbaşa dəstəyi davam etdirib, eləcə də 228 xüsusilə aztəminatlı qaçqın ailəsinin öz əsas ehtiyaclarını ödəməsinə kömək göstərib.



*Yuxarıda: Ötən illərdə olduğu kimi, 2018-ci ildə də BMT QAK Fuji Optical şirkətinin dəstəyi ilə altı yapon optometriya mütəxəssisi 2815-dən artıq qaçqın, məcburi köçkün və digər aztəminatlı şəxslər üçün  müalicə xidməti həyata keçirib.*

## Bir sıra üsullarla miqrasiya və sərhəd idarəetməsinin gücləndirilməsi

2018-ci ildə Azərbaycan hökuməti BMqT, BMTİP və FAO-nun birgə dəstəyi ilə yeni e-xidmətlər tətbiq etməklə, məsul şəxslərin bacarıqlarını artırmaqla və Avropa İttifaqının nümunəvi təcrübələrini mənimsəməklə, miqrasiya və sərhəd idarəçiliyini təkmilləşdirib. Bu sahədəki işlər xüsusilə aşağıdakıları əhatə edib:

- BMTİP Gürcüstan və Azərbaycan hökumətlərinə aid müştərək gömrük nəzarəti məntəqələrində kompleks sərhəd idarəçiliyi sistemlərini təkmilləşdirməkdə və müasirləşdirməkdə dəstək göstərib.
- BMqT hökumətin miqrasiya ilə bağlı e-xidmətləri təkmilləşdirməsinə dəstək göstərib. Hazırda sənədlərin onlayn təqdim edilməsi, e-imza, ərizələrin statusunun onlayn izlənməsi kimi yeni funksiyalar əcnəbilər, eləcə də yerlilər üçün informasiya və xidmətlərə daha asan və daha rahat çıxış imkanı təmin edir.
- BMqT müvafiq milli qurumların 83 işçisi üçün təlimlərin keçilməsi vasitəsilə məsul şəxslərin səyahət sənədlərinə baxış bacarıqlarını artırmağa davam edib. Bundan əlavə, Gömrük nəzarəti məntəqələrində səyahət edənlərin Ümumdünya Gömrük Təşkilatının materialları əsasında seçilməsi üsullarına dair Qaydalar hazırlanıb.
- BMqT miqrasiyanın müxtəlif aspektlərinə və əhalinin rahat hərəkətinə dair məlumatlılığı artırmaq məqsədilə, Dövlət Miqrasiya Xidməti, Xarici İşlər Nazirliyi, və ASAN Xidmətlə sıx əməkdaşlıq şəraitində kompleks informasiya kampaniyası hazırlayıb. Kampaniya ictimaiyyəti, diasporanı və əcnəbi ziyarətçiləri hədəfləyib.





# Üçüncü strateji sahə:

*Ətraf mühitin idarə edilməsi və onun təhlükə və fəlakətlərə müqavimətinin təkmilləşdirilməsi*

İqlim dəyişmələri hazırda bütün ölkələr kimi Azərbaycana da təsir göstərdiyi üçün BMT emissiyaları azaldacaq, həmçinin əhalinin və iqtisadi sektorların adaptasiyasına kömək edəcək tədbirlər tətbiq etmək məqsədilə həm sənaye, həm də hökumətlə çalışmaqdadır. Bu, Tərəfdaşlıq Çərçivə sənədi, həmçinin hökumətin xalq üçün dəyərli kənd təsərrüfatı sahəsinin asılı olduğu ətraf mühitin qənaətbəxş şəkildə idarə olunması və zərərli iqtisadi fəaliyyətlərdən qorunması üçün müvafiq qanunvericilik, siyasət və sistemlərin həyata keçirməsini dəstəkləyir. Bütün ölkə əhalisi zəlzələ, daşqın və digər fəlakətlərə məruz qalma baxımından həssas kateqoriyaya daxil olduğu üçün hazırkı Çərçivə sənədi təbii və antropogen fəlakətlərə müqavimətin təmin edilməsi məqsədilə də bir sıra milli tədbirləri dəstəkləyir.

## 2018-ci ilin əsas məqamları

- ✓ 2018-ci ilin iyul ayında "Ətraf mühitə təsirin qiymətləndirilməsi haqqında" Qanun qüvvəyə minib və hazırda hökumət onun həyata keçirilməsi üçün altı əlavə qanunvericilik aktı hazırlamaqdadır.
- ✓ Azərbaycanda ilk dəfə Dəniz Milli Parkı yaradılıb. Park Xəzər dənizi sahilləri boyunca, təqribən 100 000 hektar ərazini əhatə edir.
- ✓ Yeni müşahidə sistemi və məsul şəxslər üçün təlimlər Azərbaycanın çəyirtkə hücumlarının öhdəsindən gəlmə bacarığını artırıb.
- ✓ Müstəqillik əldə edildikdən sonra ilk dəfə hökumət Dayanıqlı Meşə İdarəçiliyi Meyarları və Göstəricilərinin meşəçilik inventarına və idarəetmənin planlaşdırılmasına tətbiqi üçün istifadə edəcək.



**BMTİP-nin Azərbaycan Respublikası Dövlət Neft Şirkəti (ARDNŞ) ilə tərəfdaşlığı özəl sektorun iqlim dəyişmələrinə qarşı tədbirlər görə biləcəyini nümayiş etdirir.**

*Yuxarıda: BMTİP 2018-ci ildə ARDNŞ-in enerjiyə qənaət edən avadanlıqlar və ekoloji cəhətdən təmiz cihazlar quraşdırmasına kömək edib. Şirkətin rəhbər şəxsləri enerji sərfiyyatının 35 faizədək azaldılmasını təmin edirlər və hər il karbon emissiyalarının 200 tonadək (yollarda 30 nəqliyyat vasitəsinin azalmasına ekvivalentdir) azaldılmasını nəzərdə tuturlar. Bu səylər, həmçinin nəqliyyatın ekoloji baxımdan daha təmiz ola biləcəyini nümayiş etdirir. 2018-ci ildə ARDNŞ-də enerji sərfiyyatı baxımından səmərəli sürüş texnikaları və yanacaq yanmasından əmələ gələn enerjini elektrik enerjisinə çevirən nəqliyyat vasitələri təqdim olunub. Şirkətin rəhbər şəxsləri təkcəbu sadə həll variantlarının şirkətin əsas nəqliyyat vasitələrindəemissiyaları 10-15 faiz azaldacağını nəzərdə tuturlar.*

## İqlim dəyişmələri ilə bağlı tədbirlər davam edir

Azərbaycan 2030-cu ilədək istixana qazlarının emissiyasını 35 faizədək azaltmaq hədəfində Tərəfdaşlıq Çərçivəsi Azərbaycana yardım göstərir[12]. Ölkənin daha təhlükəsiz qlobal iqlimə əzmlə verdiyi dəstəyin tərkib hissəsi kimi, hökumət 1990-cı ildə BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasını ratifikasiya edib. Hökumətin bu Konvensiya üzrə öhdəliklərini yerinə yetirməsi üçün BMTİP Ekologiya və Təbii Sərvətlər Nazirliyi bu sahədə əməkdaşlıq edir. Azərbaycan 2018-ci ildə bu Konvensiya üzrə özünün ikinci İkiillik Hesabatını müvəffəqiyyətlə təqdim edib.

Bu innovativ hesabat ölkənin iqlim dəyişmələrini azaltmaq məqsədilə həyata keçirdiyi tədbirlərə, həmçinin ölkənin əlavə ehtiyaclarına və aldığı dəstəyə dair informasiya ilə yanaşı, milli istixana qazları inventarları barədə vacib məlumatları da təmin edir. Konvensiya üzrə bu kimi hesabat prosedurları vasitəsilə cari emissiyaların qiymətləndirilməsi Azərbaycanda rəhbər şəxslərin iqlim dəyişmələri ilə mübarizə aparmağın ən yaxşı yollarına dair qərar qəbul etməsinə kömək edən olduqca əhəmiyyətli məlumatlar təmin edir. İstixana qazlarının daha əvvəlki inventarlarına əsasən, 2010-cu ildə ölkə üzrə ümumi emissiyaların 75.6 faizi energetika sahəsinin payına düşür. Bu vəziyyət, dəyişikliklər həyata keçirmək üçün bu sahə ilə işləməyin nə dərəcədə vacib olduğunu göstərir.

## Meşəçilik təsərrüfatında, dəniz və milli park ərazilərində ətraf mühitin mühafizə və idarə edilməsinin təkmilləşdirilib

### Yeni qanun ətraf mühitin daha güclü mühafizəsini nəzərdə tutur

2018-ci ilin iyul ayında Azərbaycan Respublikasının "Ətraf mühitə təsirin qiymətləndirilməsi haqqında" Qanunu qüvvəyə minib. Hökumət bu qanunun həyata keçirilməsi məqsədilə, BMT-nin Avropa üçün İqtisadi Komissiyası ilə birlikdə altı əlavə qanunvericilik aktı hazırlamaqdadır. Əlavə qanunvericilik aktları dövlət ekoloji ekspertizası, ətraf mühitin strateji qiymətləndirilməsi, ətraf mühitə təsirin qiymətləndirilməsi, bu sahələr üzrə məsləhətçilərin sertifikatlaşdırılması proseduru, eləcə də ətraf mühitə sərhədlərarası təsirin qiymətləndirilməsini və digər məsələləri . əhatə edəcək.

### Meşələrin dayanıqlı idarə edilməsi artıb

2018-ci ildə ölkədə dayanıqlı meşəçilik təsərüfatı üzrə Milli Meşəçilik Dialoqu, Milli Meşəçilik Proqramının nəzərdən keçirilməsi üçün baza rolunu oynayıb.. Bundan əlavə, FAO Ekologiya və Təbii Sərvətlər Nazirliyinin (ETSN) Meşələrin Dayanıqlı İdarə Edilməsi Meyarları və Göstəricilərinin hazırlamasını dəstəkləyib. Eyni zamanda, meşəlik sahəsində 10 milli mütəxəssis meşə inventarı, meşələrin idarə edilməsinin planlaşdırılması və müvafiq vasitələrdən istifadə sahəsində bacarıqlarını təkmilləşdiriblər. Bunun ardınca FAO, Türkiyənin Kənd Təsərrüfatı Nazirliyi və ETSN ilə əməkdaşlıq şəraitində 30 hektardan artıq meşə ərazisində meşə inventarı işləri həyata keçirib. .

### Azərbaycan özünün ilk dəniz parkını açıb

Xəzər dənizinin və sahil ərazilərinin biomüxtəlifliyi ötən illərdə tükənmə təhlükəsi ilə üzləşib. Bu vəziyyət əsasən, balıq ovunun normadan artıq olması və qeyri-dayanıqlı təsərrüfatçılığın aparılması nəticəsində torpaqların deqradasiyası səbəbindən baş verir. Xəzər dənizi üçün əsas təhlükələrdən biri isə çirklənmədir.Zərərli növlərin yayılması və iqlim dəyişmələri də bu ekosistemə əlavə mənfi təsir göstərib.

2018-ci ildə BMTİP-nin dəstəyi ilə Azərbaycanda Xəzər dənizi sahili boyunca təqribən 100 000 hektara yaxın ərazini əhatə edən ilk Milli Dəniz Parkı yaradılıb. Bundan əlavə, həmin park üçün Azərbaycanda ilk olan interaktiv ziyarətçi mərkəzi təsis edilib. Dövlətin təbii ehtiyatları ilə müqayisədə, milli park əlavə mənfəətlər də əldə edəcək və bu,parkın mühafizə tədbirlərinin və ümumi idarəçiliyinin təkmilləşdirilməsinə xidmət edəcək. Park işsiz əhali üçün yeni iş imkanları yaratmaqla yanaşı, turizmin inkişafına və regionda ümumi sosial-iqtisadi vəziyyətin yaxşılaşmasına da töhfə verəcək.

[12] *Baza ili (1990) ilə müqayisədə*



*Yuxarıda: Qızılağac Milli Parkını ziyarət edən qutan quşu*

### Parkın daha təkmil idarə edilməsi vəhşi növlərin artımına gətirib çıxarır

Qızılağac Milli Parkının işçiləri üçün əsaslı təlim keçilib və onlar müşahidə, təhlükəsizlik avadanlığı və digər xüsusi avadanlıqla təmin edilib. Bu, qutan quşlarının və digər quşların qarışıq balalayan populyasiyalarının sayının 70 000-dən 92 000-dək artması, Qızılağacda qışlayan quşların sayının isə 400 000-dən 592 000-dək artması ilə nəticələnib.

BMTİP, hökumətə digər parklarda dörd sahil və dəniz mühafizə ərazisində müəssisələr üçün onlayn resurs planlaşdırma platformasından istifadəni sınaqdan keçirməkdə dəstək göstərib. Bu platforma parkların texnologiya, xidmətlər və kadr ehtiyatları ilə bağlı bir çox idarəetmə funksiyalarının avtomatlaşdırmasına imkan verir.

## Ekoloji cəhətdən daha münasib təsərrüfat və sənaye təcrübələri tətbiq edilir

Azərbaycan fermerləri iqlim dəyişmələri və digər ekoloji problemlərə getdikcə daha çox məruz qaldıqları üçün yeni, ekoloji cəhətdən daha münasib, iqtisadi nəticələrlə ziddiyyət təşkil etməyən təsərrüfatçılıq metodlarının müəyyənləşdirilməsi və tətbiqi mühüm əhəmiyyət daşıyır. Hazırkı Tərəfdaşlıq ekoloji cəhətdən daha təmiz təcrübələrin tətbiqi məqsədilə, bütün sektora təsir göstərmək üçün həm milli siyasət səviyyəsində, həm də birbaşa fermerlərlə və sənaye sahəsi ilə iş aparıb.

### Təsərrüfatla məşğul olan təcrid olunmuş ailələrə kənd təsərrüfatı məhsulları istehsalını təkmilləşdirmək üçün dəstək göstərilib

BMTİP alternativ gəlir mənbələri imkanlarının yaradılması vasitəsilə İsmayıllı və Şamaxı rayonlarının yüksək dağlıq kəndlərində yerli icmalara dəstək göstərmək məqsədilə, öz istehsal potensiallarını qurmağı nəzərdə tutan ailələrə kompleks biznes xidmətləri göstərmək üçün ABAD ilə bir araya gəlib. Ümumilikdə, 16 ailə maddi-texniki təchizat dəstəyi üçün məhsulların seçilməsi, sertifikatlaşdırma, marketinq və brendləşdirmə xidmətləri kimi bir sıra məsələlərdə təlimlərdə iştirak edib.. BMTİP yerli icmaların ehtiyaclarını diqqətlə dinləməklə, onların bu proseslərdə yaxından iştirakını və əməkdaşlığını təmin etməklə torpaqların və meşələrin dayanıqlı idarə edilməsi təcrübələrini təşviq edib. Heyvandarlığın təbiətə mənfi təsirlərini azaltmaq məqsədilə, stimullaşdırıcı addımlar atılıb və alternativ gəlir mənbələri yaradılıb.

### Milli bitkilər barədə məlumatlılıq artır və bu bitkilərin istifadəsi genişlənir

Kənd Təsərrüfatı Nazirliyi aqro-bio müxtəliflik barədə məlumatlılığı və kənd təsərrüfatı sahəsində yerli bitkilərdən istifadənin intensivliyini və miqyasını artırmaq məqsədilə BMTİP ilə tərəfdaşlıq edib. Sahəvi gen bankında altı bitkinin 19 növünün əkilməsi həyata keçirilib. Eyni zamanda, 22 fermer yerli bitkilərin yeddi müxtəlif növ toxumlarının əkininə başlayıb. Hazırda pilot regionlarda fermerlərin 1.5 faizi yerli bitki növlərindən istifadə edir. Bu regionlarda aqrar məlumat, təlim və bacarıqların inkişafı mərkəzləri kimi fəaliyyət göstərməsi üçün Aqrar Elm və İnformasiya Məsləhət Mərkəzlərinin texniki bacarıqları artırılıb.

### Çəyirtkə hücumları riskinin öhdəsindən gəlinir

Qafqaz və Orta Asiyada çəyirtkə hücumlarının müşahidəsi və ona qarşı mübarizə məqsədli kompleks və rəqəmsal qlobal yer müəyyənləşdirmə sistemi qurulub. Bununla yanaşı, ümumi və xüsusi mövzular üzrətəlimlərin keçilməsi, müvafiq texnoloji avadanlıq, eləcə də müntəzəm məsləhət dəstəyinin təmin edilməsi vasitəsilə çəyirtkələrin müşahidəsinə məsul olan Kənd Təsərrüfatı Nazirliyinin kadr potensialı gücləndirilib. Əlavə olaraq, çəyirtkələr əleyhinə istifadə edilən pestisidlərin potensial təhlükələrinin qiymətləndirilməsi məqsədilə, texniki, avadanlıq və operativ dəstək təmin edilib və İnsan Sağlamlığının Monitorinqi qrupu yaradılıb.

### Civənin mənfi təsirlərinin aradan qaldırılması

BMTİP, Ekologiya və Təbii Sərvətlər Nazirliyinə Civə İnventarı və milli Civə Profilini hazırlamaqda dəstək göstərib. Bundan əlavə, insan sağlamlığını və ətraf mühiti civənin mənfi təsirlərindən qorumaq sahəsində qlobal pakt olan Minimata Konvensiyasının həyata keçirilməsi məqsədilə, milli qanunvericilikdəki boşluqların təhlili, həmçinin institusional və potensialla bağlı ehtiyacların qiymətləndirilməsi aparılıb. Eyni zamanda, civəyə və onun insanlara, eləcə də ətraf mühitə mənfi təsirinə dair məlumatlılığı artırmaq məqsədilə təlimlər və digər məlumatlandırıcı sessiyalar təşkil edilib.

# Gənclərin səlahiyyətləndirilməsi

Azərbaycan əhalisinin təqribən 31 faizini gənclər (14-29 yaşlı) təşkil edir. Gənclərin müsbət sosial dəyişiklik təmsilçiləri kimi çıxış etməsi üçün BMT, Tərəfdaşlıq Çərçivəsi vasitəsilə onların səlahiyyətləndirilməsi istiqamətində çalışır. 2018-ci ildə bu fəaliyyət gənclərin öz yaşıdlarını sosial problemlər üzrə tədbirlərə cəlb etməsinə dəstək göstərilməsini, əlilliyi olan gənclərin müsbət imicinin formalaşdırılmasını və gənclərin öz bacarıqlarını inkişaf etdirmələri üçün imkanların yaradılmasını əhatə edib.

## 2018-ci ilin əsas məqamları

- ✓ Gənclərlə əlaqələrin qurulması məqsədilə, 17 gənc lider DİM səfirləri seçilib və bu məqsədləri öz yaşıdları arasında təbliğ etmələri üçün zəruri bacarıq və vasitələrlə təmin edilib.
- ✓ BMT və hökumətin birgə təşəbbüsü nəticəsində çoxsaylı təlim imkanları və gənclərin cəlb edilməsi fəaliyyətləri vasitəsilə mövcud Gənclər Evinin funksiyaları gücləndirilib.
- ✓ Azərbaycanda ilk dəfə olaraq, müasir robot texnologiyası laboratoriyası öz qapılarını gənclərin üzünə açıb.
- ✓ Gənclərin inkişafına dəstək göstərilməsi üçün peşəkar gənc kadrlar hazırlamaq məqsədilə, ilk milli magirstratura kursu təsis edilib.
- ✓ Azərbaycanda keçirilən dördüncü Paralimpiya oyunlarında yarışan yüzlərlə əlliliyi olan uşaq və yeniyetmənin hər biri bir qalibdir.




*Yuxarıda: BMT-nin Gənclər üzrə Məşvərət Şurası fəaliyyətdə.*

## BMT-nin Gənclərdən ibarət Məşvərət Şurası gəncləri qərar qəbuletmədə iştiraka cəlb edir

BMT öz fəaliyyətlərinin gənclərin ehtiyac və problemlərinə daha həssas yanaşmasını təmin etmək məqsədilə, 2016-cı ildə Azərbaycanda özünün Gənclərdən ibarət Məşvərət Şurasını (UNYAC) yaradıb. Şura, vacib təcrübə və məlumatları təmin etməklə BMT-nin bu sahədə fəaliyyətini formalaşdırmağa kömək edib. 2018-ci ildə Şuranın müxtəlif sahələrdən olan 11 gənc üzvü bu fəaliyyəti davam etdirib.

Ən əhəmiyyətlisi isə Şura üzvləri, münaqişədən zərər çəkmiş ərazilərə səfərlər edib və gəncləri Dayanıqlı İnkişaf Məqsədləri barədə maarifləndiriblər. Şura üzvlərinin teatr formasında təşkil etdiyi təlimlərdə, bələdiyyələrlə keçirdiyi görüşlərdə, icmaların problemlərinin həllinə həsr etdiyi sessiyalarda, eləcə də interaktiv təqdimat və seminarlarda təşkil etməklə beş rayondan təqribən 300 gənc iştirak edib.

Şura üzvləri, həmçinin il ərzində BMT-nin Könüllülər proqramının rəhbərliyi altında "gənc könüllü fəaliyyəti" sessiyalarını keçiriblər. Üzvlər Dövlət Gənclər Proqramı üzrə müşahidəçi qismində də fəaliyyət göstəriblər. Onlar onlayn sorğu həyata keçirib və sorğudan sonra 7000-dən artıq gəncin iştirakı iləfokus qrup müzakirələrini təşkil edib.

## Gənclərlə iş üzrə kadrların yeni nəslinin formalaşdırılması

2018-ci ildə gənclərlə iş üzrə rəhbər şəxslər üçün ilk magistratura proqramı ilə yanaşı, gənc kadrların hazırlanması üzrə milli təşəbbüsə başlanılıb. Proqram Estoniya, Böyük Britaniya, Malta və Finlandiyanın qabaqcıl təcrübələrini ölkə mühitinə uyğunlaşdırır. Yeni proqram Prezident Administrasiyası, Gənclər və İdman Nazirliyi, Təhsil Nazirliyi, Prezident yanında Dövlət İdarəçilik Akademiyası və UNICEF-in dəstəyi ilə beynəlxalq ekspertlərlə birgə hazırlanıb. Proqramın 2019-cu ilin sentyabr ayından etibarən həyata keçirilməsinə dair altı ali məktəblə razılıq əldə olunub.

## Gənclər evləri vasitəsilə 1000-dən artıq gənc fəaliyyətə cəlb olunub

UNICEF-in rəhbərliyi ilə BMT-nin bir neçə agentliyi (UNFPA, BMT QAK, UNV, BMTİP) və Şura iki rayonda (Mingəçevir və Binəqədi) dövlətin idarə etdiyi Gənclər Evləri üçün kompleks xidmət paketi təqdim edib. Nəticədə, 1200-dən artıq gənc əsas həyat bacarıqları, Dayanıqlı İnkişaf Məqsədlərinə dair biliklər, könüllü fəaliyyəti, reproduktiv sağlamlığa dair maarifləndirmə, gender zorakılığının qarşısının alınması, eləcə də psixoloji və hüquqi məsləhətlərdən faydalanıb.

## Təşviqat tədbirləri həyata keçirən gənclərin səlahiyyətləndirilməsi

UNICEF, yeniyetmə gənclərin Gənclər üzrə Məsləhət qrupları vasitəsilə öz icmalarında onlara aid məsələlərə dair qərar qəbuletməyə cəlb edilməsinə dəstək göstərərək bir ilkə imza atır. 2018-ci ildə Azərbaycan Gənc Fəal Müdafəçilər Proqramının 60-dan çox yeni üzvü (11-18 yaşlı) liderlik, layihə idarəçiliyi, rəqəmsal media, kommunikasiya, təqdimat, fəlakət risklərinin azaldılması və mina risklərinə dair maarifləndirmə sahələrində yeni bilik və bacarıqlarəldə edib. Onlar daha sonra, öyrəndiklərini öz rayonlarında yaşayan 2200 yeniyetmə ilə paylaşıb.

Üç pilot rayonda – Tərtər, Bərdə və Goranboyda gənclərlə yerli icra hakimiyyətləri arasında dialoqlara başlanıb və üç fərdi təşəbbüs layihəsi gənclər və yerli dövlət orqanları ilə birgə həyata keçirilib. Bu modulun növbəti iki ildə digər rayonlarda da tətbiqi nəzərdə tutulur.



*Yuxarıda: Şagirdlər yeni laboratoriyada işləməyə başlayırlar*

## Azərbaycan tələbələri müasir robot texnologiyası laboratoriyasından faydalanır

BMTİP və Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi noyabr ayında Azərbaycanda ilk dəfə olaraq, Bakı şəhərində yerləşən 23 saylı tam orta məktəbdə Robot texnologiyası laboratoriyası açılışını edib.

Bu unikal robot cihazı beynəlxalq səviyyədə qəbul edilən Arduion platformasına əsaslanır. Bu platforma kompyuter və robot texnologiyalarını anlamağa kömək edən dünya səviyyəli təhsil avadanlığıdır. BMTİP və Nazirlik şagirdlərin erkən yaşlardan robot texnologiyaları sahəsində ixtisaslaşmasına kömək edən bu imkanı yaratmaq məqsədilə yerli texnologiya şirkəti olan Sumaks Technologies ilə çalışıb. Laboratoriya şagirdlərin proqramlaşdırma, mexanika və elektronika sahəsində bacarıqlarını artıracaq, həmçinin elm, texnologiya, mühəndislik və riyaziyyat sahələrində biliklərini artıracaq robot dəsti ilə təmin edəcək.




*Yuxarıda: Yeddi idman növü üzrə 190 əlilliyi olan uşağın rəqabət apardığı 2018-ci il dördüncü Paralimpiya Oyunlarında hamı qalib sayıla bilər. Bu il həmin oyunlara Gürcüstandan da uşaqlar qoşulub. Oyunları Milli Paralimpiya Komitəsi təşkil edib və UNICEF, UNFPA və Azercell Telecom dəstəkləyib. Oyunlar 13-14 noyabr tarixlərində Sumqayıt Paralimpiya İdman Oyunları Kompleksində keçirilib.*

## İnkişaf naminə könüllü fəaliyyəti

Könüllülük imkanları gənclər üçün öz peşəkar və fərdi bacarıqlarını inkişaf etdirmə şəraiti yaradır və onların cəmiyyətdə müsbət rol oynamasına imkan verir. 2018-ci ildə gənclərin könüllülük fəaliyyətinin dayanıqlı inkişaf səylərinin arxasında dayanan güc şəklində vurğulanması davam edib. Könüllülük fəaliyyəti müxtəlif təcrübəyə malik gənclərin BMT və hökumətin təşəbbüslərində milli könüllülük imkanlarında iştirakını təşviq edir.

BMT Könüllülərinin (UNV) Azərbaycanda mövcudluğu könüllülüyün əsas strateji prioritetlərindən biri kimi hökumət tərəfdaşları ilə birgə siyasət, qanunvericilik və proqramların hazırlanmasında BMT sisteminin daha dərindən inteqrasiyasını sürətləndirib. Milli könüllülərin cəlb edilməsini və onların töhfəsini tam şəkildə anlamaq üçün UNV, hökuməti ölkə səviyyəsində könüllülüyə dair Milli Vəziyyətin Təhlilini həyata keçirməyə dəvət edib. Təhlilin nəticələri fərdi könüllülük vasitəsilə – gənclər, qadınlar və əlilliyi olan şəxslərlə iş kimiinkişaf problemləri üçün həll variantlarının şaxələndirilməsinə töhfə verdiyini ortaya çıxarıb.

# Qadınların səlahiyyətləndirilməsi

2018-ci ildə BMT-nin gender bərabərliyi, həmçinin qadınların səlahiyyətləndirilməsiüzrə təşviqat tədbirləri bir sıra vacib fəaliyyətlərin təsis edilməsi və həyata keçirilməsi ilə önəm qazanıb. Buraya qadın hüquqları üzrə kampaniyalar, həmçinin siyasəti müəyyənləşdirən fiqurların və digərlərinin qadınların səlahiyyətlərinin artırılması üzrə müsbət tədbirlər həyata keçirmələrinə kömək üçün yeni araşdırmalara və tədbirlər planlarına dəstək göstərilməsi aiddir.

## 2018-ci ilin əsas məqamları

- ✓ Minlərlə şəxs qızların və qadınların hüquqlarını təbliğ etmək naminə kampaniyalara, həmçinin gender zorakılığına qarşı tədbirə cəlb edilib.
- ✓ Qadınların özəl sektorda nailiyyət əldə edən zaman üzləşdikləri maneələrə dair yeni araşdırma fəaliyyət üçün yeni təkliflər verir.
- ✓ Gender əsaslı cinsi seçim edilməsinin qarşısını almaq məqsədilə tədbirlər planı icra edilmək üçün hazırlanmaqdadır.



### *Gender əsaslı zorakılığa qarşı tədbir*

BMT-nin 9 agentliyi Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi və yerli qeyri-hökumət təşkilatları ilə tərəfdaşlıq edərək gender əsaslı zorakılığa qarşı 16 günlük fəallıq kampaniyasını həyata keçirib.

Kampaniya ərzində hökumət, beynəlxalq təşkilatlar, vətəndaş cəmiyyəti təşkilatları, KİV, akademik dairələr və gənclər qruplarının nümayəndələrinə UNFPA-nın Kişilər və Gender Bərabərliyi mövzusunda Beynəlxalq Araşdırması (IMAGES) haqqında məlumat verilib. Nəticələri 2019-cu ildə paylaşılacaq bu araşdırma, Azərbaycanda gender münasibətlərinin dinamikasını xüsusi şəkildə təhlil edir.

*Fotoda UNFPA və "Ladies on Bikes" qadın velosiped klubunun Mingəçevirdə təşkil etdiyi velosiped yarışının iştirakçıları öz əksini tapıb. "Gender əsaslı zorakılığa qarşı 16 gün" kampaniyasının yaratdığı fürsətdən faydalanaraq, yarış iştirakçıları qadın və qızlara qarşı qərəzli yanaşmanın daha çox müşahidə olunduğu dörd rayon və şəhəri (Mingəçevir, Lənkəran, Qusar, Biləsuvar) hədəf kimi seçiblər.*

Eyni zamanda, gender əsaslı zorakılığı, mövcud profilaktika və cavab tədbirləri mexanizmləri barəsində məlumatlılığı artırmaq məqsədilə, təqvim, broşur, banner və plakatlardan istifadə edilib. Həmçinin, 10 ərazidə əsas yollardakı məlumat lövhələrində müvafiq kampaniya məlumatları nümayiş etdirilib. Beş sosial klip 24 000 baxış əldə edib və 121 dəfə paylaşılıb. Kampaniyanın mesajını gücləndirmək məqsədilə Mingəçevir, Qusar, Lənkəran və Balakəndə 320 gənc qızın iştirakı ilə velosiped yürüşü təşkil olunub.

Eyni zamanda, BMT QAK Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi ilə əməkdaşlıq edərək gender əsaslı zorakılığa qarşı cavab və profilaktika tədbirləri mövzusunda yerli dövlət orqanlarının və səhiyyə işçilərinin bacarıqlarını təkmilləşdirib. Agentlik, həmçinin qadınların özünə inamını və onların icmada təhsil alma imkanını artırıb. Fəaliyyətlər Bakı, Ağdam, Fizuli, Bərdə, Goranboyu və Cocuq Mərcanlı kəndini əhatə edərək 10 000 məcburi köçkünün həyat şəraitini yaxşılaşdırıb.



## Bərabərliyə idman şansının verilməsi

İdman insanların özünə inamının yaradılmasının və cəmiyyətin sağlam və əlilliyi olan qızlara baxışının dəyişdirilməsinin ən güclü yollarından biridir. 2018-ci ildə BMT qızların bacarıq və səlahiyyətlərinin artırılması məqsədilə müxtəlif idman qurumları və digər tərəfdaşlarla bir araya gəlib.



### #QızlarBacarır kampaniyası

*UNICEF Azərbaycan Futbol Federasiyaları Assosiasiyası (AFFA) ilə bir araya gələrək müştərək #QızlarBacarır kampaniyası vasitəsilə, vurulan qolları qadın və qızların hüquqlarına həsr edib. Kampaniya daha çox qızın öz fərdi bacarıq və istedadlarını nümayiş etdirməsini həvəsləndirməklə, tanınmış və müvəffəqiyyətli qızlar və gənc qadınlar vasitəsilə Gənclər Forumunu təşkil edib. Kampaniya sosial şəbəkələr vasitəsilə 260 000 insana çatdırılıb.*



### Beynəlxalq Qadınlar Günündə #bərbaərliknaminəoyna

*Beynəlxalq Qadınlar Gününün (8 mart) qeyd edilməsi məqsədilə Azərbaycandakı diplomatik missiyaların və Azərbaycanın qadınlardan ibarət milli futbol komandasının 20 nümayəndəsi #bərabərliknaminəoyna haştaqı altında yoldaşlıq oyunu keçirilib. Tədbiri Gənclər və İdman Nazirliyinin dəstəyi ilə BMT-nin Bakıdakı Ofisi, Azərbaycan Futbol Federasiyaları Assosiasiyası (AFFA), Missiya rəhbərlərinin Həyat Yoldaşları Təşkilatı və Meksika səfirliyi təşkil edib.*



### Əlilliyi olan və əlilliyi olmayan qızlar Xüsusi Olimpiya Oyunlarında iştirak edirlər

*Gender stereotiplərini azaltmaq məqsədilə UNFPA Azərbaycanda əqli məhdudiyyətləri olan və olmayan qızları və gənc qadınları idman növlərində bərabər imkanlarla iştirakını təmin etmək məqsədilə Xüsusi Olimpiya Oyunları təşkil edib. Oyunların əsas məqsədi onların gender əsaslı zorakılıq və ayrı-seçkilikdən zərər çəkmə riskini azaltmaq olubLayihədə Abşeron rayonundan olan 14-17 yaşlı 40 qız iştirak edib. Azərbaycanda əlilliyi olan gənclərin təqribən yarısı evdə, öz həmyaşıdlarından təcrid olunmuş şəkildə təhsil alır. Layihə əqli qüsurlu qızların inteqrasiyasına maneələri aradan qaldırmağa, həmçinin gender bərabərsizliyi və əlilliyə görə stiqma hallarına qarşı mübarizə aparmağa yönəlib.*

## Qadınların bacarıq və səlahiyyətlərinin artırılmasına kömək məqsədilə yeni resurs və hesabatlar hazırlanıb

BMTİP, UNFPA, Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin birgə tərəfdaşlığı və İsveç Səfirliyinin maliyyə dəstəyi ilə qadınlara biznes imkanlarından istifadə etməyə, layiqli iş əldə etməyə, və özəl sektorda uğurlu karyera qurmağa mane olan cəhətləri araşdıran yeni bir tədqiqat işi dərc olunub.

Eyni zamanda, gender əsaslı zorakılığın iqtisadi nəticələrinə dair keyfiyyət araşdırmasının birinci layihə variantı hazırda siyasət müəyyənləşdirici şəxslərin istifadəsinə açıqdır . Bundan başqa, UNFPA qızlara qarşı fiziki və cinsi zorakılığa dair məlumat kitabçası hazırlayıb və Azərbaycanın dörd rayonunda sınaqdan keçirib.

Eyni zamanda, gender məsələlərinə həssas yanaşan siyasətlərin hazırlanması və həyata keçirilməsi məqsədilə, UNFPA müxtəlif resurslar və hesabatlar ərsəyə gətirib. Bunlara Gender əsaslı zorakılığının qarşısının alınması və ona qarşı cavab tədbirlərinə dair Milli Tədbirlər Planının düzəliş edilmiş layihəsi, gender əsaslı zorakılıqla bağlı Əsas Xidmətlər Paketi və Standart Fəaliyyət Prosedurları, həmçinin gender əsaslı zorakılığın yayılma səviyyəsinə dair milli sorğu, gender əsaslı

zorakılığın doğurduğu iqtisadi xərclərə dair keyfiyyət araşdırması və “Azərbaycanda qadınlar və kişilər” adlı 2018-ci ilə dair illik statistik məlumatlar kitabının hazırlanması və dərci aiddir.

## Cinsə görə seçimin qarşısını almaq üçün milli tədbirlər planı hazırlanıb

Azərbaycanda cinsə görə seçimin qarşısının alınması BMT üçün əsas strateji prioritetlərdən biridir. Ölkədə cinslərin nisbəti 116/100 olmağa davam edir və bu, hər il qızlardan 12-15 000 çox oğlan uşağının doğulması deməkdir. 2018-ci ildə UNFPA bu problemin həllinə yardım etmək məqsədilə, cinsə görə seçimin qarşısınının alınması və ona qarşı cavab tədbirlərinə dair Milli Tədbirlər Planının hazırlanmasına kömək edib.




*Azərbaycanda özəl sektorda qadınlar: imkanlar və çətinliklər*




*Azərbaycanda gender bərabərliyi və gender münasibətləri: cari tendensiyalar və imkanlar*




*Əhalinin vəziyyətinin təhlili: Azərbaycanda demoqrafik keçid*



# İnsan hüquqları

BMT 2018-ci ildə maraqlı tərəflər, hökumət, vətəndaş cəmiyyəti və hüquq icmasının Azərbaycanda insan hüquqlarını daha yaxşı həyata keçirmə bacarıqlarını artırıb. Təşviqat tədbirləri uşaq hüquqlarını dəstəkləmiş, həmçinin Ümumdünya İnsan Hüquqları Bəyannaməsinin 70 illiyi insan hüquqlarının tarixini və fundamental əhəmiyyətini əks etdirmək və qeyd etmək üçün imkan yaradıb.

## 2018-ci il üzrə əsas məqamlar

- Minlərlə məktəbli insan alveri ilə necə mübarizə aparmalı olduqları haqqında məlumatlandırılıb.
- Uşaq hüquqları üzrə milli təlimçilər ölkədə uşaq hüquqlarına dair təlim keçmələri üçün müvafiq vasitələrlə təmin ediliblər.
- Biz Ümumdünya İnsan Hüquqları Bəyannaməsinin 70 illiyini sərgi təşkil edərək qeyd etdik və hər kəsi insan hüquqlarını dəstəkləməyə çağırdıq.

## İnsan hüquqlarını həyata keçirmək üçün milli potensial yaradılıb

2018-ci ildə BMT-nin bir neçə agentliyi (OHCHR, BMqT, BMTİP, UNFPA və UNICEF) çoxsaylı maraqlı tərəflər üçün insan hüquqlarına dair birgə təlimlər keçib. Təlimlər vətəndaş cəmiyyətinin nümayəndələri, müəllimlər, ASAN könüllüləri, hakim və prokurorlar, Dövlət Miqrasiya Xidmətinin heyəti, əmək müfəttişləri, Milli Vəkillər Kollegiyasının üzvləri, potensial təlimçiləri və Bakı şəhərindəki, eləcə də Azərbaycanın rayonlarında icma liderlərini əhatə edib.

Nəticədə, Bakıdan olan 54 hüquqşünas və regionlardan olan 4 hüquqşünas üçün Avropa İnsan Hüquqları Məhkəməsinin məhkəmə-prosessual qanunvericiliyinə dair, hakimlər və hüquqşünaslar üçün isə beynəlxalq miqrasiya hüququna barədə təlim keçirilib. Bununla yanaşı, vətəndaş cəmiyyəti təşkilatlarının və hüquq icmalarının 120 nümayəndəsi hazırda BMT-nin insan hüquqları mexanizmlərindən istifadə etməklə insan hüquqlarını müşahidə etmə və ona dair hesabat sahəsində yeni bacarıqlara malikdir. 20 nəfər gəncə uşaq hüquqlarına dair peşəkar təlimçi sertifikatı verilib. ASAN könüllüləri (71 qız və 29 oğlan) həmin peşəkar gənclərin təlimlərində iştirak edib və qazandıqları biliyə əsaslanaraq ASAN Xidmət Mərkəzlərində (rayonlardakı dövlət informasiya, məsləhət və xidmət məntəqələrində) Uşaq Hüquqları Günləri təşkil edəcəklər.

Hökumət, vətəndaş cəmiyyəti və digər maraqlı tərəflərin hazırda insan hüquqlarına dair yeni təhsil materiallarına çıxışimkanları var. Bu materiallara müxtəlif alətlərə dair 29 dəst təhsil vəsaitləri daxildir. Hazırda insan hüquqları və hüquq qaydasına dair 6000-dən artıq Azərbaycan dilində nəşr mövcuddur. İndiyədək bu nəşrlərin təqribən yarısı milli maraqlı tərəflər, o cümlədən hökumət, vətəndaş cəmiyyəti və hüquq icmalarına paylanılıb.

BMT-nin İnsan Hüquqları üzrə Ali Komissarlığının (OHCHR) dəstəklədiyi resurs mərkəzi də milli qanunvericilik məlumatlarını, beynəlxalq insan hüquqları sənədlərini və digər müvafiq materialları əldə etmə imkanı təmin etməklə vətəndaş cəmiyyəti və hüquqşünaslar üçün mərkəz rolunu oynayır. OHCHR, həmçinin əksəriyyəti vətəndaş cəmiyyəti təşkilatları olan 154 iştirakçı üçün Mərkəzdə seminar, təlim və konfranslar olmaqla toplamda, 9 tədbir keçirib.



*Yuxarıda: BMT-nin İnsan Hüquqları üzrə Ali Komissarlığının resurs mərkəzi vətəndaş cəmiyyəti və hüquqşünaslar üçün mühüm məlumat mərkəzidir.*

Eyni zamanda, UNFPA-nın rəhbərliyi ilə Azərbaycanda BMT-nin Qadınlara qarşı ayrı-seçkiliyin bütün formalarının ləğv edilməsi haqqında Konvensiyasının (CEDAW) icra vəziyyətinə dair hesabata dəstək fəaliyyətləri davam etdirilib. 2018-ci ildə bütün müvafiq nazirliklərin və komitələrin nümayəndələri üçün CEDAW Komitəsinə hesabata dair UNFPA təlim təşkil

edib. Vətəndaş cəmiyyəti təşkilatlarının gender bərabərliyi və hüquqlar üçün müvəkillik tədbirlərini həyata keçirmə və alternativ CEDAW hesabatının hazırlanmasında potensial iştirak bacarıqları artırılıb. Əlavə olaraq, Bu Konvensiya ilə bağlı dörd nəşr dərc edilib, mütəxəssislərə və geniş ictimaiyyətə çatdırılıb.

## İnsan alveri ilə mübarizə məqsədilə həyata keçirilmiş tədbirlər

Prokuror və hakimlər üçün "İnsan alveri ilə mübarizəyə dair Təlimat", valideynlər üçün uşaqlara aid "Uşaq Hüquqları Konvensiyasına dair Təlimat" və məlumat kitabçası dərc edilib. Eyni zamanda, konvensiya ilə əlaqədar 20 nəfərə peşəkar və interaktiv təlim keçmək üçün peşəkar təlimçi sertifikatları verilib.

2018-ci ildə BMT ilk dəfə olaraq yerli diplomatların insan alverinə qarşı mübarizə sahəsində bacarıqlarının artırılmasına kömək edib. Xarici İşlər Nazirliyinin Konsulluq şöbəsinin 12 əməkdaşı, BMqT və Xarici İşlər Nazirliyi ilə sıx əməkdaşlıq nəticəsində hazırlanmış təlim proqramı və diplomatlar üçün təlimat vasitəsilə bu sahədə bilik və bacarıqlarını artırıb. Eyni zamanda, BMqT və Əmək və Əhalinin Sosial Müdafiəsi



*Yuxarıda: 2018-ci ildə BMT QAK qaçqınların hüquq və azadlıqlarını təşviq etmək üçün, Dünya Qaçqınlar Günü münasibətilə rəsmi tədbir təşkil edib. Tədbirdə yüksək səviyyəli hökumət rəsmiləri, diplomatlar və ictimaiyyətnümayəndələri iştirak edib. Rəsmi mərasimdə məcburi köçkün həyatını təsvir edən interaktiv teatr tamaşası da nümayiş etdirilib*

Nazirliyinin dəstəyi ilə 40 hakim və prokuror insan alverinə qarşı mübarizə sahəsində milli və beynəlxalq üsullar barədə biliklərini artırıb.

BMqT Azərbaycan Qızıl Aypara Cəmiyyəti və Təhsil Nazirliyi ilə tərəfdaşlıq edərək Bakıdakı və rayonlardakı məktəblərdə insan alverinin müxtəlif forma və mərhələlərinə, həmçinin insanları istismarın bu növünə həssas edən səbəblərə dair 1901 məlumatlılığın artırılması seminarı keçirib.

## Qaçqınların və digər həssas qrupa aid şəxslərin hüquqları təşviq edilib

BMT QAK, Miqrasiya Siyasəti Hazırlanması üzrə Beynəlxalq Mərkəz və Dövlət Miqrasiya Xidməti ilə birgə qaçqınlara dair qanunvericilik çərçivəsində əsas müddəaların həyata keçirilməsini istiqamətləndirmək məqsədilə, qaçqın statusunun müəyyənləşdirilməsinə dair Standart Fəaliyyət Prosedurları hazırlayıb. BMT QAK, qaçqınların və sığınacaq axtaran şəxslərin statusunun leqallaşdırılması, eləcə də onların proseslərə cəlb edilmə və inteqrasiyasını dəstəkləmək məqsədilə, əsas hökumət tərəfdaşları, eləcə də beynəlxalq təşkilatlarla bir sıra yüksək səviyyəli görüşlər keçirib. Belə tədbirlərdən biri Avropa Şurası ilə birlikdə təşkil edilmiş, hökumət rəsmilərinin və hakimlərin iştirak etdiyi qaçqınların təqib, müharibə və ya işgəncəyə məruz qala biləcəkləri yerlərə deportasiyasının qadağan edilməsinə dair seminar olub.

## Uşaq hüquqları təşviq edilib

UNICEF əsas diqqəti əlilliyin tibbi məsələ kimi deyil, sosial məsələ kimi qavranılmasına yönəltməklə, əlilliyi olan uşaqların hüquqlarına dəstəyini davam edib. Uşaq Hüquqları Komitəsinin tövsiyələrinə əsasən, bütün ölkədə ixtisaslı yuvenal ədliyyə qruplarının fəaliyyəti təsis edilib. Bakı Şəhər Ağır Cinayətlər Məhkəməsində müvəffəqiyyətli şəkildə sınaqdan keçirildikdən sonra Gəncə, Şəki və Lənkəran şəhərlərində də oxşar qruplar formalaşdırılıb. Bu proqramların diqqət mərkəzində "uşaqların ali maraqları", zərərçəkən və şahidlərə təqsirləndirilən şəxs kimi davranılmasının, onların uzun müddət istintaq və təhqiqata cəlb edilməsinin qarşısının alınması, uşaqların qorunması konsepsiyaları, azadlıqdan məhrum etmədən fərqli cəzalarla cəzalandırılması, məhkəmə prosesində uşaqlara onların yaşına uyğun şəkildə davranılması dayanır. İxtisaslı qruplar uşaqlarla bağlı işlərə bu yeni bacarıq və yanaşmalar əsasında baxılmasına məsul olacaqlar.

UNICEF-in dəstəyi ilə Ombusdman Aparatı nəzdindəki Milli Preventiv Qrup hazırda uşaq hüquqları pozuntularını daha yaxşı müəyyənləşdirmə və önləmə bacarıqlarını əldə edib. 2018-ci ildə Qrup üzvləri 48 uşaq qayğı müəssisəsində (o cümlədən cəzaçəkmə müəssisələrində) monitorinq aparıb və konfidensiallığı qoruyaraq 100 uşaqla əlaqə qura biliblər. UNICEF Qrupun İnformasiyanın İdarə Edilməsi Sistemini təkmilləşdirməsinə də kömək edib. Hazırda bütün monitorinq səfərləri, qaynar xətt zəngləri və şikayətlər bu informasiya sistemi vasitəsilə idarə olunur. 2018-ci ildə sistemdə 300-dən artıq uşağın işi qeydiyyata alınıb və baxılıb.

## Ümumdünya İnsan Hüquqları Bəyannaməsinin 70 illiyinin qeyd edilməsi

OHCHR Ümumdünya İnsan Hüquqları Bəyannaməsinin 70 illiyi münasibətilə, UNDPI (BMT-nin İctimai İnformasiya Departamenti), Rezident Əlaqələndiricinin Ofisi, BMT QAK, UNFPA, UNV və UNICEFlə birgə dekabr ayında üç günlük tədbir təşkil edib. Mədəniyyət və Turizm Nazirliyinin Muzey Mərkəzində keçirilmiş tədbir insan hüquqlarının inkişafını, qlobal problemləri və həll yollarını işıqlandırıb. Sərgi ziyarətçilər üçün dünyanın müxtəlif yerlərindən karikaturaçı rəssamların Bəyannamənin 30 maddəsinə həsr etdikləri əsərləri və 40 tanınmış qrafik dizaynerin insan hüquqlarına dair təxəyyüllərinin təsvir olunduğu və hər kəsi insan hüquqlarının müdafiəsinə çağıran posterləri nümayiş etdirib.



*Yuxarıda: 2018-ci ildə İnsan hüquqları haqqında Ümumi Bəyannamənin 70-ci ildönümünə insanları cəlb etmək üçün müxtəlif incəsənət formalarından istifadə edilib.*

# Bölmə 3:
# İrəliyə baxış

***Yeni tərəfdaşlar***

***Qarşıdan gələn il***





# Yeni tərəfdaşlıqlar

2018-ci ildə BMT-nin dayanıqlı inkişaf sahəsində fəaliyyətinə dəstək məqsədilə, yeni maraqlı tərəflərlə bir sıra tərəfdaşlıqların əsası qoyulub:

- BMT Birinci Vitse-Prezidentin ofisi ilə güclü işgüzar əlaqələr yaradıb və bu, 2018-ci ildə məhsuldarlıq baxımından özünü doğruldub. Birinci Vitse-Prezidentin ofisinin maliyyə dəstəyi ilə,Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi və ASAN xidmət vasitəsilə əlilliyə və yaşlanmaya dair iki yeni layihə hazırlanıb. Layihələri BMTİP və BMT-nin Əhali Fondu həyata keçirib.
- Eyni zamanda, Türkiyənin Meşə Təsərrüfatı Nazirliyi, Azərbaycanın Ekologiya və Təbii Sərvətlər Nazirliyi və FAO arasında Üçtərəfli Əməkdaşlıq yaradılıb. Bu əməkdaşlığın məqsədi meşələrin dayanıqlı idarəçiliyinin planlaşdırılması sahəsində biliklərin və qabaqcıl təcrübələrin Türkiyədən Azərbaycana ötürülməsidir.
- 2018-ci ildə özəl sektorla, xüsusilə, Amerika və Almaniya Ticarət Palataları ilə 2030-cu il Gündəliyinə və "Qlobal Müqavilə" təşəbbüsünü dəstəkləmək məqsədilə tərəfdaşlıq gücləndirilib. BMTİP, həmçinin Ekologiya və Təbii Sərvətlər Nazirliyinin restrukturizasiyasına kömək etmək məqsədilə PriceWaterhouseCoopers şirkəti ilə tərəfdaşlıq edib.
- Nəhayət, Rezident Əlaqəndiricisinin ofisi öz fəaliyyətlərinin əhatə dairəsini və BMT-nin qeyri-rezident agentlikləri ilə əlaqələri genişləndirib. Həmin agentliklər sırasında BMT-nin Avropa və Mərkəzi Asiyada Təbii Fəlakət Risklərinin Azaldılması Ofisi, BMT-nin İnsanları Məskunlaşdırma Proqramı və Atom Enerjisi üzrə Beynəlxalq Agentliyin (AEBA) Texniki Əməkdaşlıq Departamenti yer alır.



# Qarşıdan gələn il

### BMT-nin İnkişaf Sistemi İslahatı

2019-cu ildə əsas diqqət mərkəzində dayanan məsələlərdən biri BMT-nin İnkişaf Sisteminin islahatları olacaq. Bu islahatlara Rezident Əlaqələndirici sisteminin maneəsiz keçidinin təmin edilməsi və Əlaqələndirici ofisinin Azərbaycanda BMT-nin effektiv və səmərəli koordinasiyasına dəstək göstərmə imkanlarının artırılması daxil olacaq. Bu islahatların BMT proqamlarının daha geniş inteqrasiyasını və uyğunluğunu, resurların səfərbər edilməsini və fəaliyyətin səmərəliliyini təmin edəcəyi gözlənilir.

### Yeni Tərəfdaşlıq Müqaviləsi

2019-cu ildə də BMT ilə Azərbaycan arasında yeni Tərəfdaşlıq sazişinin hazırlanması prosesinə başlanması eyni dərəcədə vacib olacaq. Buraya hazırkı Tərəfdaşlığın qiymətləndirilməsi və ölkə üzrə ümumi təhlili daxil olacaq. İslahat BMT-nin istənilən ölkədə tam və güclü şəkildə mövcudluğu üçün Tərəfdaşlıq Çərçivəsinin mərkəzi rolunu təsdiq edib. Buna görə də BMT-nin Rezident Əlaqələndiricisinin rəhbərliyi ilə qarşıdan gələn Tərəfdaşlıq sazişinin hazırlanması prosesindən hökumətlə və digər tərəfdaşlarla BMT-nin öz nisbi üstün cəhətlərindən və bütün dünyada sərəncamında olan geniş peşəkar biliklərdən istifadə etməklə Azərbaycanın Dayanıqlı İnkişaf Məqsədlərinə nail olmaq səylərinə dəstək göstərə biləcəyinə dair yeni dialoq yaratmaq üçün istifadə edəcək.

### Dayanıqlı İnkişaf Məqsədləri

Azərbaycan Dayanıqlı İnkişaf Məqsədlərinə nail olmaqla bağlı güclü siyasi qətiyyətini elan edib. Azərbaycan 2017-ci ildə regionda Könüllü Milli Hesabatını təqdim edən ilk ölkələrdən biri olub. Həmçinin BMT-nin rəhbərlik etdiyi MAPS missiyasını qəbul etmək üçün ölkə DİM-lərə dair regional Foruma ev sahibliyi edib. BMT-nin dayanıqlı inkişafa dair əsas platforması olan Yüksək Səviyyəli Siyasi Foruma təqdim edilmək üçün ikinci Hesabat hazırlanmaqdadır. BMT ölkənin 2030-cu il Gündəliyi ilə bağlı bu öhdəliyinə əsaslanacaq və onu inkişaf etdirəcək. Təşkilat, DİM-lərə nail olma prosesinin resurslar və milli büdcə ilə əlaqələndirilməsi üzrə yeni milli dialoq prosesində çoxsaylı tərəfdaşlarla, o cümlədən parlament, vətəndaş cəmiyyəti, akademik dairələr, KİV və özəl sektorla birgə çalışacaq.

Yenilənən Rezident Əlaqələndirici sistemi çərçivəsində, BMT-nin Rezident Əlaqələndiricisinin sədrlik etdiyi mövcud İnkişafın Koordinasiyası Forumundan inkişaf üzrə tərəfdaşların Dayanıqlı İnkişaf Məqsədlərinə dəstəyinin stimullaşdırılması üçün mexanizm və platforma kimi istifadə ediləcək. İnkişaf üzrə əsas tərəfdaşlarla (Avropa İttifaqı, USAID, vətəndaş cəmiyyəti təşkilatları, Beynəlxalq Maliyyə İnstitutları) DİM-lərdən əlaqələndirmə vasitəsi kimi istifadə edilməsinə dair ilkin dialoq və məsləhətləşmə artıq 2018-ci ildə baş tutub. Ümid edirik ki, bu, Azərbaycanda milli prioritetlərə dəstək və Azərbaycanın dayanıqlı inkişaf məqsədlərinə nail olması istiqamətində inkişafın əlaqələndirilməsini və fəaliyyəti daha da gücləndirəcək.

## *2019-cu ildə tərəfdaşlığın genişləndirilməsi*

BMT-nin Azərbaycandakı nümayəndəliyi, Məqsədlərin milli səviyyədə müvafiq maliyyələşdirilməsini təmin etmək məqsədilə, biznes sektoru ilə tərəfdaşlıq imkanlarını da araşdırmaqdadır. BMT biznes icması arasında bu məqsədlərin həyata keçirilməsinin təxirəsalınmazlığına dair məlumatlılığı artırmağa davam edəcək, biznes sektorunun sosial məsuliyyətini artıracaq və DİM-lərə nail olunmasına töhfə verəcək tərəfdaşlıqlar quracaq. Özəl sektorun BMT-nin Azərbaycandakı nümayəndəliyi ilə işləməyə həvəsli olmasına əsaslanaraq, Ölkə üzrə İdarə Heyəti 2019-cu ildə "Qlobal Müqavilə" (Global Compact) təşəbbüsünün canlanması və həyata keçirilməsi üçün səylər göstərəcək.

Eyni zamanda, vətəndaş cəmiyyəti təşkilatları və Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Şurası BMT-nin Azərbaycandakı nümayəndəliyinin inkişaf üzrə əsas tərəfdaşlarından biri olaraq qalır. Vətəndaş cəmiyyəti təşkilatları müntəzəm şəkildə BMT-nin ölkədəki layihələrinin hazırlanması, həyata keçirilməsi və qiymətləndirilməsinə cəlb olunacaqlar.

BMT-nin Azərbaycandakı nümayəndəliyi 2019-cu ildə elm xadimləri və media ilətərəfdaşlığını da davam etdirəcək. Azərbaycanın ADA Universiteti və Qərb Universiteti əməkdaşlıqda maraqlı olduqlarını ifadə edib və bu məsələ gələn il araşdırılacaq. BMT-nin Azərbaycandakı fəaliyyətlərinin ictimaiyyətə çatdırılması səviyyəsini artırmaq, eləcə də Dayanıqlı İnkişaf Məqsədlərini təbliğ etmək və ictimaiyyəti BMT-dəki islahatlar barədə məlumatlandırmaq məqsədilə, BMT-nin Kommunikasiya Qrupu yerli kütləvi informasiya vasitələri ilə sıx əməkdaşlıq şəraitində çalışmağı və sosial medianın imkanlarından tam şəkildə istifadə etməyi planlaşdırır.



# Bölmə 4:
Tərəfdaşlarımız və maliyyə icmalı



## BMT-nin Agentlikləri

Ərzaq və Kənd Təsərrüfatı Təşkilatı

Beynəlxalq Əmək Təşkilatı

Beynəlxalq Miqrasiya Təşkilatı

İnsan Hüquqları üzrə Ali Komissarlığının Ofisi

BMT-nin İnkişaf Proqramı

BMT-nin Avropa İqtisadi Komissiyası

BMT-nin Əhali Fondu

BMT-nin Qaçqınlar üzrə Ali Komissarı

BMT-nin Uşaq Fondu

Ümumdünya Səhiyyə Təşkilatı

## Töhfə verən tərəfdaşlar

Avstriya İnkişaf üçün Əməkdaşlıq Proqramı

"Coca-cola" Fondu

Niderland Səfirliyi

Avropa İttifaqı

Qlobal Ətraf Mühit Fondu

Azərbaycan Hökuməti

Türkiyə Hökuməti

Yaşıl İqlim Fondu

KOICA – Koreya İnkişaf Agentliyi

İsveçrə İnkişaf və Əməkdaşlıq Agentliyi

BMT-nin Gender Bərabərliyi və Qadınların Səlahiyyətlərinin Artırılması Qurumu

ABŞ Dövlət Departamentinin Narkotiklər və hüquq mühafizəyə dair beynəlxalq məsələlər üzrə Bürosu

ABŞ-ın Beynəlxalq İnkişaf Agentliyi

Ümumdünya Ticarət Təşkilatı – Standartlar və Ticarətin İnkişafı Fondu

## İcraçı tərəfdaşlar

"ABAD" Publik Hüquqi Şəxs

Ədliyyə Akademiyası

Dövlət İdarəçilik Akademiyası

"İçərişəhər" Dövlət Tarix-Memarlıq Qoruğu İdarəsi

Azərbaycan Qida Təhlükəsizliyi Agentliyi

Azərbaycan Tibb Universiteti

Azərbaycan Respublikası Ərazilərinin Minalardan Təmizlənməsi üzrə Milli Agentlik (ANAMA)

Azərbaycan Qızıl Aypara Cəmiyyəti

Azərbaycan Dövlət Həkimləri Təkmilləşdirmə İnstitutu

Azərbaycan Turizm və Menecment Universiteti

Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyası

Azərbaycan Gənclər Fondu

Azərbaycan Vəkillər Kollegiyası

Bakı Dövlət Universiteti

Nazirlər Kabineti

İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzi

Baş Prokurorluq

Yerli icra hakimiyyəti orqanları

Kənd Təsərrüfatı Nazirliyi

Mədəniyyət Nazirliyi

Ekologiya və Təbii Sərvətlər Nazirliyi

İqtisadiyyat Nazirliyi

Təhsil Nazirliyi

Fövqəladə Hallar Nazirliyi

Energetika Nazirliyi

Xarici İşlər Nazirliyi

Səhiyyə Nazirliyi

Daxili İşlər Nazirliyi

Ədliyyə Nazirliyi

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi

Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi

Gənclər və İdman Nazirliyi

Sahibkarlar (İşəgötürənlər) Təşkilatları Milli Konfederasiyası

Dayanıqlı İnkişaf üzrə Milli Əlaqələndirmə Şurası

Milli Paralimpiya Komitəsi

Ombudsman aparatı

İctimai Səhiyyə və İslahatlar Mərkəzi

Respublika Gigiyena və Epidemiologiya Mərkəzi

Xüsusi Olimpiya Komitəsi

İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi

Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi

Alternativ və Bərpa Olunan Enerji Mənbələri üzrə Dövlət Agentliyi

Dövlət Sərhəd Xidməti

Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi

Qaçqın və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsi

Əmlak Məsələləri Dövlət Komitəsi

Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi

Dövlət Gömrük Komitəsi

Mənzil İnşaatı Dövlət Agentliyi

Dövlət Miqrasiya Xidməti

Azərbaycan Respublikası Dövlət Neft Şirkəti

Dövlət Təhlükəsizlik Xidməti

Dövlət Statistika Komitəsi

Dövlət Turizm Agentliyi

Peşə Təhsili üzrə Dövlət Agentliyi

Milli Məclis

Sosial və İqtisadi Məsələlər üzrə Üçtərəfli Komissiya

Həbsxanalarda vərəmin profilaktikası və nəzarəti üzrə Ümumdünya Səhiyyə Təşkilatı ilə Əməkdaşlıq Mərkəzi

## Qeyri-hökumət və vətəndaş cəmiyyəti təşkilatları

"Təmiz dünya" İctimai Birliyi

Beynəlxalq Avrasiya Mətbuat Fondu

Yerli idarəetmə orqanlarının yardımı

Azərbaycan Respublikası Gənclər Təşkilatları Milli Şurası

"Uluçay" Sosial İnnovasiya Mərkəzi

Azərbaycana Birgə Yardım Təşkilatı (UAFA)

Gənc üçün Təhsil Mərkəzi

Y-PEER Azərbaycan Şəbəkəsi

Sosial İnnovasiya Laboratoriyası

İDEA İctimai Birliyi

# Maliyyə icmalı

## Strateji sahələr üzrə büdcə ayırmaları 2018

| Nəticə | Xərclənmiş büdcə (USD) | Agentliklər |
|---|---|---|
| 1-ci strateji prioritet sahə: Artan şaxələndirilmə və layiqli əməyi özündə ehtiva edən dayanıqlı və inklüziv iqtisadi inkişafın təşviqi | 4,998,519 | FAO, BƏT, BMqT, BMTİP, UNECE, BMT QAK |
| 2-ci strateji prioritet sahə: İnstitusional potensialın gücləndirilməsi və səmərəli dövlət xidmətləri və sosial xidmətlər | 6,059,683 | FAO, BMqT, BMT İHAK, BMTİP, UNICEF, UNFPA, BMT QAK , ÜST |
| 3-cü strateji prioritet sahə: Ətraf mühitin idarə edilməsinin təkmilləşdirilməsi və risk və təbii fəlakətlərə qarşı dayanıqlılığın artırılması | 4,894,509 | FAO, BMTİP, UNECE, ÜST |
| **Cəmi** | **15,952,711** | |

## Agentliklər üzrə büdcə ayırmaları Agency 2018

| Agentlik | Xərclənmiş büdcə (USD) |
|---|---|
| FAO | 1,052,062 |
| BƏT | 180,000 |
| BMqT | 1,584,504 |
| BMT İHAK | 83,000 |
| BMTİP | 8,559,566 |
| UNECE | 35,000 |
| UNFPA | 709,621 |
| BMT QAK | 2,382,660 |
| UNICEF | 1,208,798 |
| ÜST | 157,500 |
| **Cəmi** | **15,952,711** |

*BMT-nin Azərbaycandakı Ofisi tərəfindən nəşr olunub*
*© BMT-nin Azərbaycandakı Ofisi 2019*
*Tel: (012) 498 98 88*
*Email: office.az@one.un.org*
*Bakı şəhəri, BMT-nin 50 illiyi küçəsi 3*